AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

SCIENTIFIC WORK
International Scientific Journal

## ELMİ ARAŞDIRMALAR
## XXVII BEYNƏLXALQ ELMİ KONFRANS

## SCIENTIFIC RESEARCHES
## XXVII INTERNATIONAL SCIENTIFIC CONFERENCE

28.11.2025

// ELMİ İŞ
**Beynəlxalq Elmi Jurnal**

---

## ELMİ ARAŞDIRMALAR
## XXVII BEYNƏLXALQ ELMİ KONFRANS

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

# SCIENTIFIC WORK
**International Scientific Journal**

---

## SCIENTIFIC RESEARCHES
## XXVII INTERNATIONAL SCIENTIFIC CONFERENCE

**(28.11.2025)**

**2025**

# Beynəlxalq indekslər / International Indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

©Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© beyn.konfrans@aem.az
© info@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ,** Bakı Dövlət Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Funda TOPRAK,** Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə

**Məsul katib**

**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV,** Bakı Dövlət Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. Anar İSGƏNDƏROV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Sədaqət HƏSƏNOVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA,** Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vaqif ABBASOV,** ARETN Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Georgi DUKA,** Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Əliəddin ABBASOV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Ulduz HƏŞİMOVA,** ARETN Fiziologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. İsmayıl ƏLİYEV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO,** İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. İrina KREYDİÇ,** Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Rajeş KUMAR,** Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan

**Prof. Dr. Bahadur QƏLƏNDƏROV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Rafiq ÇOBANOV,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehdi BAĞIROV,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Xəzər HÜSEYNOV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN,** Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO,** Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc SADIQOVA,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Assoc. Prof. Dr. Oruc HÜSEYNOV,** Gəncə Dövlət Universiteti /Azərbaycan
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ,** Bakı Dövlət Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan

### Deputy Chairman

**Researcher Mubariz HUSEYINOV,** Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK,** Ankara Yildirim Beyazit University / Turkey

### Executive secretary

**Assoc. Prof. Dr. Rafael HASANOV,** Baku State University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Anar ISGANDAROV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Sadaqat HASANOVA,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA,** Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y. H. Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Georgi DUKA,** Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Aliaddin ABBASOV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV,** Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Ismayil ALIYEV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I. M. Sechenov / Russia
**Prof. Dr. Irina KREYDICH,** National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
**Prof. Dr. Rajesh KUMAR,** Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Bahadur GALANDAROV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Rafig CHOBANOV,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehdi BAGHIROV,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Khazar HUSEYNOV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN,** Gazi University / Turkey
**Prof. Dr. Fakhraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV,** Nakhchivan Teacher Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA,** Baku State University / Azerbaijan

**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO,** Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Rovshan VALIYEV,** Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj SADIGOVA,** Azerbaijan Science Center / Azerbaijan
**Assoc. Prof. Dr. Oruj HUSEYNOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Fuad KERIMLI,** Baku State University / Azerbaijan

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Lalə Məmmədova**
Bakı Dövlət Universiteti
hüquq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-3995-3342
lala.mammadova-11@bsu.edu.az

## Xüsusi icraatların bir növü kimi hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraatda məhkəmənin vəzifəsi

***Açar sözlər:*** *məhkəmə hökmü, xüsusi icraat, qanuni qüvvəyə minmiş məhkəmə qərarı, ədalət mühakiməsi, amnistiya, cəzadan şərti azad etmə*

***Keywords:*** *court verdict, special proceedings, legally binding court decision, justice, amnesty, conditional release from punishment*

Cinayət prosesində xüsusi icraatların bir növü kimi hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat mühüm əhəmiyyətə malikdir. Bu icraat cinayət prosesinin yalnız tamamlayıcı deyil, həm də məcburi mərhələlərindən biri hesab olunur.

Məhkəmələr hökmün və ya digər yekun məhkəmə qərarlarının icrası mərhələsində bir neçə əsas istiqamət üzrə fəaliyyət göstərməlidirlər. İlk növbədə, qanuni qüvvəyə minmiş hökm-

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

lərin və digər yekun qərarların icrasına dair dərhal icra göstərişi verilməsi təmin edilməlidir.

Bununla yanaşı, məhkəmələrin icra prosesinə nəzarəti yalnız formal prosedur aktı kimi deyil, daxil olan konkret müraciətlərin operativ və obyektiv şəkildə həlli vasitəsilə həyata keçirilməlidir. Belə nəzarət mexanizmi məhkəmə qərarlarının vaxtında və düzgün şəkildə yerinə yetirilməsini təmin edən mühüm institusional vasitə kimi çıxış edir.

Sözügedən məsələlərin həlli məhkəmənin səlahiyyət dairəsinə aid olduğundan, hökmün icrası cinayət-prosessual fəaliyyətin ayrılmaz tərkib hissəsi hesab olunur. Bu səbəbdən sovet cinayət prosesində hökmün icrası müstəqil mərhələ kimi qəbul edilmişdir. Hökmün icrası yalnız qərarın tətbiqi funksiyası ilə məhdudlaşmır, həm də prosessual nəzarət və hüquqi təminat mexanizmini özündə birləşdirən müstəqil hüquqi institut rolunu oynayır.

2000-ci ildən sonra qəbul edilmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi hökmün icrasının xüsusi icraat kimi tənzimlənməsini ön plana çıxardı. Yeni qanunvericilikdə hökmün və məhkəmənin digər yekun qərarlarının icrası müstəqil icraat növü kimi təqdim olunur. Bu, məhkəmə qərarlarının yerinə yetirilməsi üçün daha sistemli və qanunvericilik baxımından aydın qaydanın tətbiqini təmin etdi.

Bu dəyişiklik həmçinin qərarların yerinə yetirilməsi prosesinin daha şəffaf və hüquqi baxımdan mütəşəkkil şəkildə həyata keçirilməsinə imkan yaratdı. Cinayət-prosessual qanunvericiliyin müasir tələblərinə uyğun olaraq, “xüsusi icraat” anlayışı hökmün icrasının hərtərəfli və ətraflı qaydada tənzimlənməsini nəzərdə tutur ki, bu da hüquq-mühafizə orqanlarının və müvafiq icra orqanlarının məsuliyyətini artırır.

Xüsusi icraatların bu növü, əsasən, məhkəmə hökmü elan edildikdən sonra onun icrasının başa çatmasına qədər olan müd-

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

dətdə məhkumun müraciəti əsasında məhkəmənin səlahiyyətlərinə daxil olan müxtəlif məsələlərin araşdırılması və onlar üzrə qərarların qəbul olunmasını əhatə edir.

Bu aspektdən cəzanın icrasının təxirə salınması, məhkumun xəstəliyi və ya hökmün icra müddətinin bitməsi səbəbilə cəzadan azad edil-məsi, şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın qalan hissə-sinin daha yüngül cəza ilə əvəz olunması, cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünün dəyişdirilməsi, amnistiya tətbiqi, müalicə müəssisəsində saxlanılan müddətin cəzaçəkmə vaxtına daxil edilməsi, habelə məhkumluğun vaxtından əvvəl götürülməsi kimi məsələlər həll olunur.

Hökmün və ya digər yekun məhkəmə qərarlarının icrası qaydasında icraatda fəaliyyət istiqamətləri məhkəmə tərəfindən qüvvəyə minmiş hökmlərin və qərarların icrası ilə bağlı dərhal göstərişlərin verilməsi; icraat üzrə məhkəmə iclaslarında baxış keçirilərkən bu qərarların vaxtında və tam icrasına nəzarət edilməsi; hökmün və ya digər yekun məhkəmə aktlarının yerinə yetirilməməsi və ya icraya maneçilik göstərilməsi hallarında təqsirli şəxslər barəsində cinayət təqibinə başlanması üçün prokurorun məlumatlandırılması; məhkumların ərizələrinin, habelə cəzanı icra edən qurum və müəssisələrin təqdimatlarının araşdırılması və bu kimi digər səlahiyyətlərin həyata keçirilməsi ilə bağlıdır.

Məhkəmənin fəaliyyət istiqamətlərindən bəhs edərkən Azərbaycan Respublikası Konstitusiyasına nəzər yetirmək vacibdir. Belə ki, Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə əsasən, hər kəsin hüquq və azadlıqları inzibati qaydada və məhkəmədə müdafiə olunmalıdır.

57-ci maddə vətəndaşlara dövlət orqanlarına müraciət etmək və yazılı ərizələr göndərmək hüququnu tanıyır, 65-ci maddə isə hər bir şəxsin çıxarılmış hökmə yuxarı məhkəmədə baxılması,

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

əfv olunması və cəzanın yüngülləşdirilməsi üçün müraciət etmək hüququnu təmin edir.

Bu baxımdan, hökmün və məhkəmənin digər yekun qərarlarının icrası qaydasında xüsusi icraat çərçivəsində məhkəmənin fəaliyyəti yalnız qərarların icrasına nəzarətlə məhdudlaşmır, həm də Konstitusiyada nəzərdə tutulmuş hüquqların qorunmasını təmin edən tədbirləri əhatə edir. Məhkəmə bu icraatda, məsələn, cəzanın şərti olaraq vaxtından əvvəl azad edilməsi, cəzanın qalan hissəsinin çəkilməməsi və ya daha yüngül cəza ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi kimi hüquqi vasitələrdən istifadə etməklə məhkumun hüquqlarını Konstitusiyada təsbit edilmiş normalara uyğun qoruyur.

Cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad edilmə, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi və cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi institutları məhkumların islah olunma prosesini sürətləndirməyə, onların normal sosial həyatlarına qaytarılmasını təmin etməyə yönəlmişdir.

Eyni zamanda, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi məhkumların islah olunması və normativ-hüquqi aktlarla müəyyən edilmiş cəzaçəkmə müəssisələrindəki rejimə riayət etməsinə stimul yaradır. Bu institutlarla bağlı müraciətlərə məhkəmələr tərəfindən baxılarkən qanunvericiliyin tələblərinə düzgün əməl olunması məhkumların islah prosesinə müsbət təsir göstərən vacib amillərdən biridir.

Bundan əlavə, cəzanın şərti azad olunması, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı işlər üzrə vahid məhkəmə təcrübəsi yaratmaq məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu 8 oktyabr 2010-cu il tarixdə “Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" 2 saylı Qərar qəbul etmiş və məhkəmələrə bu müraciətlərə baxarkən qanunvericiliyin düzgün tətbiqi ilə bağlı ətraflı izahlar vermişdir.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Aysel Şükürova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0305-6988
aysel_edu@yahoo.com

# Kino diskursun intertekstual aspekti

***Açar sözlər:*** *kino diskurs, mətn, intertekstuallıq, informasiya, bədii filmlər*
***Keywords:*** *cinema discourse, text, intertextuality, information, feature films*

Kinoda intertekstual əlaqələrin yaranması və təhlili elmi baxımdan xüsusi maraq kəsb edir. Bədii filmlərdə məlumatın aydın, həmçinin düşündürücü və yaddaqalan şəkildə izah olunmasına ehtiyac duyulur. Bu məqsədlə ekran qarşısındakı bütün insanların dil şüuru üçün eyni dərəcədə məlum sayılan həqiqətlərə istinad etmək vacibdir.

Qeyd etmək lazımdır ki, mətnlərarası mükalimə fenomeni fərqli diskursların kontekstində müşahidə edilir və kino diskurs üçün də səciyyəvidir. İntertekstuallıq köhnə biliklərin yeni formatda, semantik çərçivədə və situasiyada nümayişi olub, mahiyyət etibarilə bir mətn daxilində digər mətn izlərinin mövcudluğudur, çünki bu zaman mətn daxilində yenisi yaranır. Bununla da kino diskursun kommunikativ potensialı artır, eləcə də tamaşaçı tərəfindən informasiyanın dekodlaşması asanlaşır.

Kinonun diskursiv sistemində intertekstual fenomenlərin növləri kifayət qədərdir. Bunlara dilin zəngin paremioloji fondu, o cümlədən onomastik sistemi də aiddir. Aktyorlar ötürülən bədii məlumatı daha da dəqiqləşdirmək məqsədilə auditoriyanın bərabər səviyyədə qavradığı faktlardan və ifadələrdən istifadə

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

edirlər. Bu zaman söyləmin mental təməli genişlənir, təqdim olunan mövzu isə hamı üçün ümumiləşir.

Məsələn, "Qadın ətri" bədii filmində veteran Frenk Sleyd deyir:

"*I want a table for two, and I don't mean Siberia ...*" (Scent of a Woman, 1992).

*İkinəfərlik masa istəyirəm, amma məni Sibirə göndərməyin.*

Restoranda iki nəfərlik masa sifariş edən veteran hamı üçün tanış olan *Sibir* onomastik vahidini xatırlatmaqla bildirmək istəyir ki, tələb etdiyi stolun məkanı Sibir regionu kimi olmamalıdır. Filmin qəhrəmanı bu leksemi nitqində səsləndirdikdən sonra izləyicinin şüurunda həmin sözlə əlaqədar müəyyən təsvir canlanır. Amerikalıların təfəkküründə, eləcə də dil şüurunda *Sibir* konsept olaraq bir zamanlar insanların təcrid edildiyi, olduqca uzaq, narahat və şaxtalı iqlimi ilə fərqlənən ərazidir.

Bildiyimiz kimi, dildə işlənən müsbət konnotasiyalı sözlər və ya söz birləşmələri bəzən müəyyən stereotiplərlə bağlı ola bilər. Bu isə mətnin semantik məzmununa təsir edir. Diskursda intertekstual əlaqəyə müraciət edərkən nəzərə almaq lazımdır ki, istinad edilən məfhumun adı kütlənin şüuru üçün yeni deyil, əksinə keçmiş təcrübəyə əsaslanan şablon formasında bilikdir. Frenk Sleyd geniş şərhlərə yer vermədən adresatı məlumatlandırmaq üçün onomastik vahiddən istifadə edərək xüsusi fon biliklərinə müraciət edir və beləliklə, kino diskursun intertekstual aspekti ifadə olunur.

## Ədəbiyyat

1. Scent of a Woman. (1992). *Film ssenarisi*. Subslikescript. https://subslikescript.com/movie/Scent_of_a_Woman-105323

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 14-17
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 14-17
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Faidə İsayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1568-5885
faida.isayeva@mail.ru

# Xarici dilin mənimsənilməsində süni intellektin rolu

***Açar sözlər:*** *müəllim, təhsil müəssisəsi, süni intellekt, texnologiya, model*
***Keywords:*** *teacher, educational institution, artificial intelligence, technology, model*

Texnologiyanın şagirdlərlə olduqları yerdə görüşmək, onların güclü tərəflərindən istifadə etmək, bilik və bacarıqlarını genişləndirmək qabiliyyəti süni intellekt (Artificial Intelligence (AI)) tərəfindən gücləndirilə bilər. Təbii giriş formalarını emal etmək qabiliyyətinə və AI modellərinin əsas güclü tərəflərinə görə AI tələbələrin uyğunlaşma qabiliyyətini artırmaq üçün xüsusilə güclü vasitə kimi xidmət edə bilər. Əsas məhdudiyyətlər verilmiş süni intellektlə işləyən sistemin əsas komponentini təşkil edən modelə xasdır. Reallıq isə modellərlə təxmin edilir.

İnsan öyrənməsinin kritik komponentləri modeldən çıxarıldıqda və ya daha az əhatəli hala gətirildikdə, nəticədə yaranan uyğunlaşma məhdudlaşacaq və potensial olaraq zəif və ya əhatə dairəsi məhdud olan öyrənmə dəstəyi ilə nəticələnəcək. Hazırda öyrənməni AI imkanları ilə məhdudlaşdırmaqdansa, bütün öyrənmə baxışlarını əhatə edən AI modelləri üçün səy göstərmək lazımdır (Əliyeva, 2021, p. 443).

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Süni intellekt modelləri "böyük dil modelləri" və ya bəzən "təməl modellər" adlanan inkişaflar sayəsində inkişaf etmiş imkanlar nümayiş etdirir. Nümunə olaraq, əsas xəbərlər tez-tez bir neçə saniyə ərzində çoxlu mövzularda inandırıcı esselər yarada bilən generativ süni intellekt modellərini təqdim edir, digər modellər isə bir neçə stimula cavab olaraq etibarlı şəkillər yaradır. Dinləmə səsyazmalarımızdakı peşəkarlar süni intellekt modellərinin insan öyrənməsi üçün ideallardan daha məhdud olduğunu və bu məhdudiyyətləri nəzərə alaraq öyrənmə mühitlərinin dizaynını davam etdirməyin çox vacib olduğunu bildirdilər. Bundan əlavə, modellər zəifdir və dəyişən kontekstlərdə effektiv işləmək üçün mübarizə aparır. Onlar insanların sahib olduğu və tez-tez irrasional və ya qeyri-münasib şəkildə reaksiya verdiyi "sağlam düşüncə" anlayışından məhrumdurlar. Əsas modellərin hesaba alınmaması ilə bağlı gözlənilməz proseslərin işığında, insanları prosesə cəlb etmək kritik olaraq qalır (Chang, 2007, p. 189).

AI-nin təhsil müəssisələrinə inteqrasiyası öyrənmə zamanı süni intellektlə bağlı iki ümumi baxışın yaranmasına səbəb olur: (1) AI tələbələrə akademik axtarışlarında kömək etmək üçün bir vasitə kimi; (2) AI və əlaqəli texnologiyalarla bağlı biliklərin əldə edilməsini asanlaşdırmaq üçün bir mənbə kimi. İndiyədək tələbələrin yazı və riyaziyyat kimi fənləri mənimsəməsinə kömək edən AI sistemləri və vasitələri araşdırılıb. Bununla belə, tələbələrin süni intellektlə bağlı biliklərə yiyələnmələri, onun cəmiyyətə və təhsilə təsirini təhlil etmələri, şəxsi həyatları və peşə trayektoriyaları ilə bağlı onun əhəmiyyətini və dəyərini müəyyən etmələri eyni dərəcədə vacibdir. Tələbələr süni intellektin təhlükələri, o cümlədən onların həyatlarının hər bir sahəsində təzahür etdiyi kimi, müşahidə və qərəzliliyin təhlükələri haqqında daha çox məlumatlı və fərasətli olmalıdırlar. Yaxın keçmişdə, məsələn, məktəblər tələbələrə kibertəhlükəsizlik

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

anlayışını inkişaf etdirməyə kömək etdi. Yeni təhlükələr AI tərəfindən təqdim ediləcək və tələbələr onlara hazır olmalıdırlar (Chang, 2007, p. 191).

Pedaqoqlar çoxdan gözləyirdilər ki, texnologiya özləri, sinifləri və şagirdləri üçün çoxsaylı təkmilləşdirmələrə imkan verəcək; lakin son pandemiyanın gətirdiyi dəyişikliklər gözlənilmir. Bu gün demək olar ki, bütün pedaqoqlar sinifdə texnologiyanın gözlənilməz tətbiqləri ilə qarşılaşıblar.

Hər bir təcrübə təhsil və texnologiyanın kəsişməsini daha çox düşünmək üçün mühüm çərçivə təklif edir. Tərbiyəçilərin qarşılaşdıqları çətinliklərin həllini prioritetləşdirməyə təcili ehtiyac var. Müəllimlər ardıcıl olaraq gördükləri qeyri-adi işi yerinə yetirmək üçün daha asan vaxt keçirməlidirlər. Bundan əlavə, fərdlərin niyə müəllimlik peşəsinə girdiyini nəzərə almalı və onlara mənalı vəzifələri yerinə yetirməkdə kömək edilməlidir. Təlim və təlimatı dəstəkləyən süni intellekt nümunələri, o cümlədən aşağıdakı anlayışlarla ifadə olunur: rutin tədris öhdəliklərini yüngülləşdirən AI köməkçiləri; ehtiyaclarına dair tövsiyələr verməklə müəllimlər və tələbələr arasında əməkdaşlığı genişləndirən AI; və təlimçilərə öz təcrübələrini əks etdirmək, planlaşdırmaq və təkmilləşdirməkdə kömək edən AI (*Müasir Təhsilə İnnovativ Yanaşmalar*, 2016).

Təlimatçıların iş yükünü azaltmaq və tələbələrin diqqətini artırmaq üçün aşağı səviyyəli detalların həllində mükəmməl pedaqoq nə qədər dəqiqə olursa olsun, hər bir detalda mahir olmalıdır. Müəyyən bir tələbə ilə işləyən müəllim gələcəkdə həmin tələbəyə faydalı öyrənmə resursu göndərmək istəyə bilər. Onu çatdırmağa onları nə əmin edəcək? Səs köməkçiləri də daxil olmaqla, süni intellekt köməkçilərinin potensial tətbiqi müəllimlərin sinif sessiyasının sonundan sonra nəzərdən keçirə və cavab verə biləcəyi qısa səsli qeydləri təsnif etməklə təşkilatı asanlaşdırmaqdır. Bazar, təlimatçıların tələbələrə diqqətini cəm-

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

ləməsinə imkan vermək üçün müxtəlif sadə vəzifələri yerinə yetirə bilən süni intellektlə işləyən səs köməkçilərini görməyə başlayır. Bu vəzifələr qeydlərin aparılması, fəaliyyətlərin başlanması və yekunlaşdırılması, displeylər, dinamiklər və digər cihazlar kimi sinif texnologiyalarının idarə edilməsi və xatırlatmaların verilməsindən ibarət ola bilər. Nəhayət, bir çox işçi işlərini asanlaşdırmaq üçün köməkçilərdən istifadə edə bilər; ona görə də bu zaman ən çox yardıma layiq olan müəllimlərdir (Chang, 2007, p. 185).

## Ədəbiyyat

1. Chang, M. M. (2007). Enhancing web-based language learning through self-monitoring. *Journal of Computer Assisted Learning, 23*, 187–196.
2. Əliyeva, L. T. (2021). Xarici dil tədrisində şifahi nitqin inkişaf etdirilməsində texniki vasitələrin rolu, 325–328.
3. Müasir Təhsilə İnnovativ Yanaşmalar. (2016). ARTPİ.

**Məlahət Qədirova**
Azərbaycan Milli Elmlər Akademiyası
N.Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-6539-7369
melahet.soltanqizi@gmail.com

# Belarus yazıçısı Tatyana Svetsin yaradıcılığında Azərbaycan mövzusu

***Açar sözlər:*** *müstəqillik, ədəbi əlaqələr, tərcümə, poeziya, nəsr, yazıçı, dünya mədəniyyəti*
***Keywords:*** *independence, literary relations, translation, poetry, prose, writer, world culture*

Müasir Belarus ədəbiyyatında öz yaradıcılığı ilə seçilən, istedadlı şairə, publisist, dramaturq, tərcüməçi, *"Ədəbiyyat və incəsənət"* qəzetinin baş redaktoru, Belarus Yazıçılar İttifaqının üzvü Tatyana Svets son illər öz maraqlı şeirləri və poemaları ilə Azərbaycan mətbuatında izlənilir. Şairə bir neçə dəfə Bakıya səfər etmiş, Azərbaycanın müxtəlif bölgələrində səfərdə olmuşdur.

Tatyana Nikolayevna Svets 1982-ci ildə Belarusiyanın paytaxtı Minsk şəhərində dünyaya göz açıb. Mükəmməl musiqi təhsili alan Tatyana Svets yaradıcılığa 1993-cü ildə, hələ 11 yaşı olarkən başlamışdır. Mətbuatda ilk şeiri 1997-ci ilin aprelində *"Ailə"* qəzetində dərc edilib. Həmin illərdə Tatyana Svets Minskdəki 176 nömrəli orta məktəbdə fəaliyyət göstərən *"İmknenne"* ("Çalışmaq") ədəbi dərnəyinin üzvü olub.

Zəngin yaradıcılığa malik şairə 2003-cü ildən Belarus Yazıçılar Birliyinin üzvüdür.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Tatyana Svets 2005-ci ildə Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin belarus filologiyası və mədəniyyəti fakültəsində "ingilis dili, belarus dili və ədəbiyyatı" ixtisası üzrə təhsil almışdır. Təhsil aldığı illərdə universitetin *"Kroki"* ("Addımlar") ədəbi birliyinin iclaslarına rəhbərlik edib.

2005–2008-ci illərdə Tatyana Nikolayevna Belarus Milli Elmlər Akademiyasının Y.Kolas və Y.Kupala adına Ədəbiyyat İnstitutunun aspirantı olub. Burada o, "Corc Bayron və Belarus poeziyasında bayronizm: tərcümələr və təsirlər" adlı elmi iş üzərində çalışıb.

Tatyana Svets 2002-ci ildən Belarus radiostansiyası ilə əməkdaşlıq edir. O, Belarus radiosunun xarici verilişlərinin şərhçisidir. Belarus dili və ədəbiyyatının ingilis dilində öyrənilməsinə həsr olunmuş orijinal layihələr hazırlayır. Eyni zamanda belarus dilində proqramlar hazırlayır.

Onun ictimai fəaliyyəti çoxşaxəlidir. 2011-ci ildən *"Maladost"* respublika gənclər jurnalının baş redaktoru olub. Həmin ilin sonlarından *"Ədəbiyyat və incəsənət"* qəzetinin baş redaktorudur.

O, 2016-cı ildə Belarus Respublikası Prezidenti yanında İdarəetmə Akademiyasını bitirib.

İstedadlı yazar Tatyana Svetsin Azərbaycanla əlaqələri genişdir. O, şeir, nəsr, tənqid, dram, poetik üslubda əsərlər yazır. Komi Respublikası, Tacikistan, Çin, Rusiya, Böyük Britaniya, Polşa və Ukrayna yazıçılarının əsərlərini belarus dilinə tərcümə edir. Tatyana Svetsin şeirləri ingilis, bolqar, rus, ukrayna, kalmık və çeçen dillərinə tərcümə edilib. Onun bir çox əsərləri müasir Azərbaycan mətbuatında dərc olunub.

Tatyana Svets 2006-cı ildə Bakıya səfər edir. Həmin səfərin onda yaratdığı təəssüratlar nəticəsində elə həmin ildə *"Bakı"* adlı poema yazır. Əsər 2006-cı ildə *"Azərbaycan"* jurnalında dərc olunur. Şairə poemada Azərbaycanın paytaxtı Bakı şəhə-

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

rinin əsrarəngiz gözəlliklərini qələmə almış, Qubaya səfəri zamanı erməni vəhşilikləri nəticəsində diri-diri, qalaq-qalaq məza-ra gömülən günahsız insanların sümüklərini seyr edən şairə bu unudulmaz mənzərəni öz yaradıcılığında ürək ağrısıyla əks etdirir.

Şairə poemada Bakını çox sevdiyini söyləyir. Bu küləkli şəhəri tərk edən şairə nə vaxtsa yenidən bir daha bu şəhərə gəlmək ümidi ilə şəhəri tərk edir.

2018-ci ildə T. Svets belarus dilində *"Azərbaycan ədəbiyyatı antologiyası"* adlı kitab tərtib etmişdir. Kitabda əsasən XX əsrdə yaşayıb-yaradan şairlərin yaradıcılığı öz əksini tapmışdır.

Tatyana Svets bir neçə il öncə Qarabağa səyahət etdi. Şuşanın əsrarəngiz gözəllikləri qarşısında heyrətlənən sənətkar Şuşa haqqında şeir yazdı.

Azərbaycan–Belarus ədəbi əlaqələrinin inkişafında böyük xidmətləri olan Tatyana Svets Azərbaycanı və azərbaycanlıları çox sevir. Hər səfərində böyük hörmətlə qarşılanan belaruslu şairə Tatyana Svetsin yaradıcılığı azərbaycanlı oxucular tərəfindən diqqət və maraqla izlənilir.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 21-22
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 21-22
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Ülkər Hüseynova**
Qərbi Kaspi Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-4389-8423
ulker.huseynova@wcu.edu.az

# Türk mənşəli arxaizmlərin ədəbi dildə yeri

***Açar sözlər:*** *arxaizmlər, ədəbi dil, leksika, türk mənşəli, qrammatika*
***Keywords:*** *archaisms, literary language, lexicon, Turkic origin, grammar*

Dilin formalaşmasında qohum və ya yad tayfaların iştirakından əlavə, bir dil kimi mövcudluğu və davamlı inkişafı üçün öz sözlərinə daim ehtiyac var. Çünki müxtəlif yad ünsürlərin təsiri ilə dilin leksik qatı zənginləşir, ancaq bu zənginləşmə bir çox hallarda dağıdıcı xarakter daşıyır. Belə ki, milli mənşəli söz unudularaq eyni mənanı ifadə edən əcnəbi söz dilə gəlir və kütləvi işlənmə hüququ qazanır. Qədim sözlərin bir qisminin ədəbi dilin sonrakı inkişaf mərhələsində mənası köhnəlir, bəziləri yalnız müəyyən söz köklərində qalır, bir sıra leksik vahidlər çağdaş ədəbi dilimizə şəkilcə dəyişmiş halda gəlib çıxır. Milli arxaizmlərin digər qismi isə bu gün ümumişlək olmasa da, müəyyən dialektlərdə mühafizə edilir və ya bədii ədəbiyyat vasitəsilə əksəriyyət üçün anlaşılıqlı hesab olunur. Belə ki, türk mənşəli arxaik sözlərin tədqiqi və təbliği yenidən istifadə ehtimalını artırır.

Klassik əsərlərinin linqvistik təhlili zamanı buradakı arxaizmlərin təhlili, lüğət şəklində qruplaşdırılması və izahı həm Azərbaycan dilinin, həm də digər türk dillərinin tarixi–müqayi-

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

səli qrammatikasının hazırlanması işində gərəkli rol oynayır. Xüsusilə, arxaizmlərin işlənmə xüsusiyyətlərinə, hər hansı bir sözün dialektlərə, yoxsa qohum dillərə məxsus olması problemlərinə işıq salır. Türk mənşəli arxaizmlər müasir dilçilikdə hərtərəfli tədqiqə ehtiyacı olan söz qruplarıdır. Müxtəlif bədii əsərlərdə və ya bütövlükdə ayrı-ayrı sənətkarların dilində işlənmiş köhnəlmiş sözlərlə əlaqədar araşdırmalar aparılmış, bəziləri monoqrafiyalarda, dərsliklərdə qeyd olunmuş, bir sıra nəzəri məsələlər — yəni onların fərqli aspektdən yanaşılmaqla təsnifatı — verilmişdir. Ancaq əksər monoqrafiyalarda ortaq və ya oxşar sözlərin izahı bir neçə bədii nümunədə əksinin təsviri verilməklə kifayətlənilmişdir.

Mövcud tədqiqatlarda türk mənşəli arxaik sözlər üçün həsr edilmiş materiallar həcm və nəzəri baxımdan arxaizmlərin dil tarixində rolu və miqdarı ilə müqayisədə çox az görünür. Bu baxımdan, arxaizmləri elmi şəkildə öyrənmək üçün əvəzsiz rola malik olan yazılı mənbələrin geniş aspektdə araşdırılması zərurəti bu gün də öz aktuallığı ilə Azərbaycan dilçiliyi qarşısında bir problem kimi qalmaqdadır. Xalqın tarixi ilə birbaşa bağlı olan dil materialları əsasında ədəbi dilin daha geniş mənzərəsini və dəqiq şərhini vermək imkanı yaranır.

**Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 23-25**
**Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 23-25**
**https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025**

**Ülviyyə Nağıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9962-5913
ulviyyenagiyeva921@gmail.com

# Pedaqoji təcrübənin subyekti olan gələcək müəllimlərin şəxsi və fərdi keyfiyyətlərinin inkişaf etdirilməsi

***Açar sözlər:*** *pedaqoji təcrübə, gələcək müəllim, fərdi keyfiyyət, şəxsi keyfiyyət, pedaqoji inkişaf*

***Keywords:*** *pedagogical practice, future teacher, individual quality, personal quality, pedagogical development*

Müasir dövrdə təhsilin inkişaf istiqamətləri müəllim şəxsiyyətinə yeni tələblər irəli sürür. Cəmiyyətin sosial-mədəni inkişafı, informasiya texnologiyalarının sürətli artımı və təhsil islahatları müəllimlik peşəsini təkcə bilik ötürmə fəaliyyəti kimi deyil, həm də şəxsiyyət formalaşdıran və sosial dəyərləri yaşadan mühüm missiya kimi təqdim edir. Bu baxımdan gələcək müəllimlərin yalnız nəzəri biliklərə yiyələnməsi kifayət etmir; onların şəxsi və fərdi keyfiyyətlərinin inkişafı da əsas pedaqoji məqsədlərdən birinə çevrilir.

Müəllim şəxsiyyətinin formalaşması uzunmüddətli və kompleks bir prosesdir. Ali pedaqoji təhsil müəssisələrində tələbələrin peşəkar hazırlığı ilə yanaşı, onların mənəvi, emosional, ünsiyyət və sosial bacarıqlarının inkişafı da diqqət mərkəzində olmalıdır. Çünki gələcək müəllimin təlim-tərbiyə prosesində uğur qazanması onun peşəkar bilikləri ilə şəxsi keyfiyyətlərinin harmonik vəhdətindən asılıdır.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Fərdi keyfiyyətlərin pedaqoji fəaliyyətə təsiri:**

Fərdi keyfiyyətlər hər bir müəllimi digərlərindən fərqləndirən daxili xüsusiyyətlərdir. Bu keyfiyyətlər doğuşdan gələn temperament, xarakter, düşüncə tərzi və həyat təcrübəsi ilə formalaşır. Məsələn, sakit temperamentli müəllimlər sinifdə sakit, mülayim atmosfer yaradır, dinamik və enerjili müəllimlər isə şagirdləri daha aktiv və motivasiyalı edə bilir. Əsas məsələ bu fərdi xüsusiyyətlərin pedaqoji məqsədlərə uyğun istiqamətləndirilməsidir. Fərdi keyfiyyətlər həm də müəllimin özünüinkişaf və özünütəkmilləşdirmə bacarığına təsir edir. Gələcək müəllimlər öz güclü və zəif tərəflərini dərk etməyə, öz fəaliyyətini daim analiz etməyə və peşəkar səviyyəsini artırmağa səy göstərməlidirlər.

**Şəxsi və fərdi keyfiyyətlərin formalaşmasında pedaqoji təcrübənin rolu:**

Pedaqoji təcrübə gələcək müəllimin nəzəri biliklərini praktik fəaliyyətlə əlaqələndirdiyi, eyni zamanda özünü müəllim kimi sınadığı mərhələdir. Bu prosesdə tələbə-müəllim təkcə dərs deməyi öyrənmir, həm də şəxsi məsuliyyət, təşəbbüskarlıq və pedaqoji qərarvermə bacarığı qazanır.

Təcrübə zamanı tələbə özünü müxtəlif pedaqoji situasiyalarda sınayır, uşaqlarla və valideynlərlə ünsiyyət qurur, çətinliklərlə üzləşir və bu çətinliklərin öhdəsindən gəlməyi öyrənir. Beləliklə, onun şəxsiyyətində emosional sabitlik, səbir, empatiya və adaptasiya bacarığı kimi mühüm keyfiyyətlər formalaşır.

Universitet müəllimlərinin və mentor pedaqoqların dəstəyi ilə aparılan refleksiv müzakirələr tələbələrə öz fəaliyyətlərinə tənqidi yanaşmağı, özünüqiymətləndirmə bacarığını və gələcək inkişaf istiqamətlərini müəyyən etməyi öyrədir.

Şəxsi və fərdi keyfiyyətlərin inkişafı təkcə psixoloji və sosial proses deyil, həm də pedaqoji fəaliyyətin əsas məqsədidir. İnteraktiv və innovativ metodlar bu məqsədə çatmaq üçün ən

effektiv vasitə kimi çıxış edir. Onlar təlim prosesinə dinamizm, əməkdaşlıq, yaradıcılıq və emosional dərinlik gətirir. Beləliklə, müasir müəllimin qarşısında duran əsas vəzifə — öyrənməni insaniləşdirmək, hər bir tələbənin və şagirdin fərdi potensialını üzə çıxarmaq və onun şəxsiyyət kimi formalaşmasına dəstək olmaqdır.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 26-29
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 26-29
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Ellada Mirişova**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-5716-0871
elladamirishova4@gmail.com

# Virtual reallıq texnologiyalarının distant və hibrid təhsildə tətbiqi: immersiv öyrənmənin pedaqoji və psixoloji aspektləri

***Açar sözlər:*** *virtual reallıq (VR) texnologiyaları, immersiv öyrənmə, distant və hibrid təhsil modelləri, pedaqoji yanaşmalar, psixoloji təsirlər və öyrənən davranışı*
***Keywords:*** *virtual reality (VR) technologies, immersive learning, distance and hybrid education models, pedagogical approaches, psychological effects and learner behavior*

Virtual reallıq texnologiyalarının inkişafı müasir təhsilin istiqamətlərini köklü şəkildə dəyişdirən mühüm yeniliklərdən biridir və xüsusilə distant və hibrid təhsil modellərinin geniş yayıldığı dövrdə bu texnologiyanın əhəmiyyəti daha da artmışdır. Təhsil sistemləri uzun illərdir ki, yenilənən cəmiyyətin tələblərinə cavab vermək üçün müxtəlif üsullarla transformasiya olunmağa çalışsa da, VR-in meydana çıxması sanki təhsilin yeni bir dövrə qədəm qoymasına səbəb olmuşdur. Bu xüsusiyyətlər VR-i ənənəvi onlayn tədrisdən tamamilə fərqləndirir və distant-hibrid təhsilin qarşılaşdığı ən çətin problemlərin həllində unikal imkanlar yaradır.

Ənənəvi distant təhsildə tələbə yalnız ekran qarşısında passiv şəkildə dərsləri izləyir və bu vəziyyət zaman keçdikcə diqqət problemi, motivasiya azalması, sosial təcrid və dərs

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 26-29
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 26-29
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

prosesinə emosional bağlılığın zəifləməsi kimi nəticələrə səbəb olur (Əliyev, 2020).

Virtual reallığın ən böyük üstünlüyü tələbəyə “orada olmaq hissi”ni yaşatmasıdır. Hətta fiziki olaraq başqa məkanda olsa da, VR başlığı taxan tələbə özünü dərsin içində, müəllim və digər tələbələrlə yanaşı hiss edir. Bu, psixologiyada *presence* adlanan fenomenlə əlaqəlidir və beyində real təcrübələrin formalaşması mexanizminə çox yaxın təsir yaradır. Yəni VR-də öyrənilən məlumat ənənəvi onlayn dərsdə öyrəniləndən daha yaxşı yadda qalır.

Bundan başqa, virtual reallıq tələbənin emosional iştirakını artırır. Öyrənmə prosesində emosiyaların rolu çox böyükdür; çünki emosional reaksiyalar kognitiv fəaliyyətlərlə sıx əlaqədə olur və insanın motivasiyası, marağı və diqqət səviyyəsi daha yüksək olur. Tələbə VR-də özünü hadisələrin içində hiss etdiyi üçün dərs onun üçün sadəcə nəzəri bilik deyil, həm də emosional bir təcrübəyə çevrilir. Məhz buna görə virtual reallıq motivasiyanı artıran ən təsirli pedaqoji vasitələrdən biri hesab olunur (Bower, DeWitt, & Lai, 2020).

Virtual reallığın pedaqoji potensialı yalnız emosional iştirakla məhdudlaşmır. Konstruktivist pedaqogika nəzəriyyəsinə görə, tələbə bilikləri aktiv şəkildə özü yaratmalı, təcrübə vasitəsilə öyrənməlidir. Ənənəvi təlim modelləri isə çox vaxt passiv bilik ötürməsinə əsaslanır. VR bu baryeri aradan qaldırır və tələbəni təcrübə edən subyektə çevirir. Məsələn, tarix dərsində şagirdlər qədim şəhərlərə səyahət edir, coğrafiya dərsində dağların relyef quruluşunu üçölçülü şəkildə araşdırır, biologiya dərsində hüceyrə strukturlarını içəri daxil olaraq müşahidə edir, tibb tələbələri isə risk olmadan virtual əməliyyatlar həyata keçirə bilir. Beləliklə, virtual reallıq konstruktivist öyrənmə üçün ideal şərait yaradır və tələbələrin bilikləri öz təcrübələri ilə qurmasına imkan verir.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Distant təhsilin ən böyük çatışmazlıqlarından biri sosial qarşılıqlı əlaqənin zəifləməsidir. Tələbələr bir-biri ilə əlaqə qurmaqda çətinlik çəkir, müəllimlə ünsiyyət azalır və nəticədə kollektiv öyrənmə mühiti zəifləyir. Virtual reallıq bu problemi demək olar ki, tamamilə aradan qaldırır. VR sinif otaqlarında tələbələr avatarlar vasitəsilə bir-biri ilə qarşılıqlı əlaqədə olur, qrup müzakirələri aparır, ortaq layihələrdə iştirak edir və müəllimlə real vaxtda təmas qururlar. Bu, sosial öyrənmə nəzəriyyələrinin tələblərinə cavab verir və tələbələrin həm sosial, həm də akademik kompetensiyalarını gücləndirir.

Üstəlik, VR mühitində müəllim dərs prosesini idarə etməkdə daha çevik olur; çünki o həm auditoriyanı, həm interaktiv materialı, həm də tələbə fəaliyyətlərini eyni anda izləyə bilir. Bu isə həm distant, həm də hibrid siniflər üçün olduqca əlverişlidir (Bailenson, 2018).

Pedaqoji baxımdan VR-in mühüm üstünlüklərindən biri də praktiki bacarıqların inkişafını dəstəkləməsidir. Teorik biliklərin praktikaya tətbiqi xüsusilə təbiət elmləri, mühəndislik, tibb və idarəetmə kimi sahələrdə fundamental əhəmiyyət daşıyır. Bu sahələrdə real təcrübə çox vaxt riskli, bahalı və ya əlçatan olmadığı üçün tələbələr praktik bacarıqları yalnız məhdud şəkildə mənimsəyə bilir. Virtual reallıq bu məhdudiyyətləri aradan qaldırır.

VR-in distant və hibrid təhsildə tətbiqi yalnız öyrənən deyil, həm də müəllim üçün yeni imkanlar yaradır. Müəllim VR kontentləri vasitəsilə dərsləri daha xarakterik, daha vizual, daha interaktiv formada təqdim edə bilir. VR mühitində müəllim ənənəvi lövhə və slaydlarla məhdudlaşmır; 3D modellərdən, simulyasiyalardan, virtual eksperimentlərdən istifadə edərək dərs prosesini zənginləşdirir. Bu, müəllimin pedaqoji yaradıcılıq imkanlarını genişləndirir və onun tədris strategiyalarını modernləşdirir (Hüseynov, 2021).

Ümumilikdə desək, virtual reallıq texnologiyaları distant və hibrid təhsil modellərinin ənənəvi çatışmazlıqlarını aradan qaldıran, öyrənmə prosesini həm pedaqoji, həm psixoloji, həm də didaktik baxımdan zənginləşdirən müasir tədris vasitəsidir. VR tələbəni tədrisin passiv müşahidəçisinə deyil, bilavasitə iştirakçısına çevirir; onun emosional, kognitiv və sosial təcrübəsini gücləndirir; öyrənməni mənalı, davamlı və real həyatda tətbiq oluna bilən hala gətirir.

## Ədəbiyyat

1. Bailenson, J. N. (2018). *Experience on demand: What virtual reality is, how it works, and what it can do*. W. W. Norton & Company. https://wwnorton.com/books/9780393253702
2. Bower, M., DeWitt, D., & Lai, J. W. M. (2020). Reasons associated with preservice teachers’ intention to use immersive virtual reality in education. *British Journal of Educational Technology, 51*(6), 2214–2232.
3. https://doi.org/10.1111/bjet.12942
4. Əliyev, R. (2020). Virtual reallıq texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi imkanları. *Azərbaycan Müəllimlər İnstitutu Elmi Xəbərlər, 4*(12), 112–120.
5. Hüseynov, V. (2021). Tədris prosesində innovativ texnologiyaların tətbiqi: Virtual reallıq nümunəsində. *Bakı Dövlət Universiteti Elmi Əsərlər, 77*(1), 98–105.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 30-32
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 30-32
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Rəxşan Mehdizadə**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-2919-6513
rr_babayeva@mail.ru

# İngilis dilinin leksikasında ekstralinqvistik ünsürlərin xarakteristikası

***Açar sözlər:*** *leksik, həşərat, spesifik, ekstralinqvistik, zəngin, məna, obyekt, sərbəst, frazeoloji, xarakteristika*
***Keywords:*** *lexical, insects, specific, rich, extralinguistic, sense, object, free, phraseological, characteristics*

Ekstralinqvistik amilləri xarakterizə edərkən ölkənin təbii şəraiti, bitki və heyvanlar aləmi, adət-ənənələr, cəmiyyətin siyasi, ictimai, mədəni inkişaf xüsusiyyətləri, başqa dillərlə kontakt və s. amillərin yer almasının şahidi oluruq. İngilis dilinin leksik inkişafında ekstralinqvistik amillərin böyük rolu olmuşdur. Bu amillər daim inkişaf etməkdə olan dillə ayrılmaz əlaqədə olur və onun lüğət tərkibini zənginləşdirir (Williams, 1976, p. 112).

İngilis dilində heyvan, quş və həşərat adlarının bir çoxu əsas və məcazi mənalarda işlənir, onların əsasında geniş sayda düzəltmə və mürəkkəb sözlər əmələ gəlir və onlar müxtəlif nitq hissələrinə aid olur.

*Dog* – "it". Bu heyvan adının məcazi mənaları daha zəngindir. Onlar arasında müsbət və mənfi çalarlıqlı xeyli ifadələr vardır; danışıq dilində: "oğlan", *cunning dog* – "hiyləgər", *lucky dog* – "xoşbəxt", "bəxtəvər" (Alekhina, 1986).

**Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 30-32**
**Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 30-32**
**https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025**

*Dog* sözü fel kimi də müəyyən mənalar əldə etmişdir: *to dog* – "izləmək", *to dog smb.'s footsteps* – "dinclik verməmək", *to dog a man* – "bir kəsin üstünə it salmaq".

*Dog* həm də sözdüzəldici element kimi məhsuldardır: *dog-cheap* – "çox ucuz", *dog-days* – "yayın ən isti günləri", *dogface* – "piyada qoşun bölməsi" və s.

*Goat* – "keçi". Bu heyvan adı frazeologiyaya daxil olmuşdur: *to get smb.'s goat* – "bir kəsi əsəbiləşdirmək".

İngilis dilinin Amerika variantında *goat* aşağıdakı frazeoloji ifadələrdə işlənir: *to lose one's goat* – "özündən çıxmaq", "əsəbiləşmək"; *to play to the giddy goat* – "axmaqlamaq". *Goat* mürəkkəb sözlərin tərkibinə də işlənir: *goat-herd* – "keçi otaran", *goat-hoofed* – "keçi ayaq", *goatskin* – "keçi dərisi", *goat's wool* – "keçi yunu" (Craigie, 1962).

İngilis dilinin leksikasının zənginləşməsində ekstralinqvistik amillərdən birini də flora təşkil edir. Xüsusilə eksotik floraya malik olan ingilisdilli ölkələrdə bu faktorun rolu daha genişdir. Bu baxımdan Avstraliyanın zəngin bitki aləminin Avstraliya ingiliscəsinin leksik, semantik, frazeoloji inkişafına böyük təsirinin şahidi oluruq. Spesifik bitki aləmi Avstraliya ingilis-cəsinin yalnız lüğət tərkibinin inkişafında deyil, eləcə də bu dildə söz yaradıcılığında, frazeoloji ifadələrin yaranmasında böyük rola malik olmuşdur (Lake, 1898).

İngilis dilinin bu variantının leksikasında ən böyük rol oynayan sözlərdən biri *bush* ("meşə") leksemidir.

İlk öncə *bush* lekseminin sözdüzəldici funksiyası olduqca genişdir.

*Bush* sözünün ikinci məna mərkəzi ölkənin daxilində yerləşən hər hansı istənilən bir hissəsidir və ya ölkənin bütün daxili hissəsidir. Təbiidir ki, belə böyük mənası olan sözün çox böyük də tutumu var (Ramson, 1966).

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Bəzi birləşmələrdə, məsələn, *bush breakfast*, *bush dinner*, *bush food* və s. *bush* sözü "kəndli" (kəndli naharı, kəndli yeməyi) mənasını bildirir və "sadə", "ağır", "kobud" mənalarında işlənir.

Məna çalarlarına diqqətlə nəzər salanda aydın olur ki, təyin funksiyasını yerinə yetirərkən *bush* – "kobud düzəldilmiş", "bacarıqsız", "əldəqayırma" mənalarını daşıyır. "Bush carpenter" birləşməsi "bacarıqsız dülgər" mənasını verir.

*Bush* sözünün əsas mənalarından biri də "toxunulmamış təbiət" mənasını daşıyır. *Bush* sözünün üçüncü mənası olan "sərt diyar" mənasının da törəməsi var. Əsasən burada keyfiyyət çalarlarına fikir verilir ("igidlik", "əməksevərlik" və s.).

*Bush* sözünün yuxarıda nəzərdən keçirilən əsas üç mənasının məna bütövlüyü onların ümumi məna bağlılığındadır. Bu üç mənanı birləşdirən ümumi bir cəhətdir – sahilyanı hissənin əksinə olaraq ölkənin daxili hissəsinin xarakteristikasıdır.

Göründüyü kimi, ekstralinqvistik ünsürlər ingilis dilinin leksikasının zənginləşməsində əhəmiyyətli mənbə rolunu oynamış, onun əsasında xeyli söz və ifadələr, eləcə də frazeoloji vahidlər meydana çıxmışdır (Morris, 1967).

## Ədəbiyyat

1. Alekhina, A. (1986). *Idiomatic English*.
2. Craigie, W. A. (1962). *A dictionary of American English on historical principles*.
3. Lake, J. A. (1898). *Dictionary of Australian words*. Springfield, MA.
4. Morris, E. (1967). *Austral English: A dictionary of Australian words, phrases and usages*.
5. Ramson, W. (1966). *Australian English*.
6. Williams, R. (1976). *Keywords: A vocabulary of culture and society*.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 33-36
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 33-36
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Müjkan Məmmədzadə**
Azərbaycan İdman Akademiyası
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-5693-3748
mujkan@mail.ru

# Müasir hərbi təhsil və liderlik hazırlığında pedaqoji yanaşmaların rolu

***Açar sözlər:*** *hərbi təhsil, liderlik hazırlığı, pedaqoji yanaşmalar, milli-mənəvi dəyərlər, innovativ tədris texnologiyaları*
***Keywords:*** *military education, leadership training, pedagogical approaches, national and moral values, innovative teaching technologies*

Müasir hərbi təhsil sistemləri qlobal təhlükəsizlik mühitində baş verən sürətli dəyişikliklər, texnoloji yeniliklər və informasiya müharibələrinin intensivləşməsi fonunda yeni pedaqoji yanaşmaların tətbiqini zəruri etmişdir. XXI əsr hərbçisi təkcə döyüş bacarıqlarına deyil, həm də strateji düşüncə, lider-lik, kommunikasiya və qərarvermə qabiliyyətlərinə malik olmalıdır. Bu baxımdan, hərbi təhsildə liderlik hazırlığı prosesinin elmi-pedaqoji əsaslarının araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Hərbi liderliyin formalaşması yalnız idarəetmə və qərarvermə səriştələrinin deyil, həm də mənəvi-dəyərlər sisteminin, etik davranış kodeksinin və milli ideologiyanın tədris prosesinə inteqrasiyası ilə sıx bağlıdır. Azərbaycan Respublikasında hərbi təhsil sisteminin modernləşdirilməsi bu istiqamətdə əhəmiyyətli nəticələr doğurmuş, ali hərbi təhsil müəssisələrində pedaqoji və psixoloji hazırlığın keyfiyyət göstəriciləri yüksəlmişdir.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Müasir hərbi təhsil konsepsiyası tədris prosesinin elmi, texnoloji və sosial aspektlərini birləşdirərək kompleks təlim mühitinin yaradılmasına əsaslanır. Hərbi pedaqogika klassik didaktik prinsipləri yeni şəraitə uyğunlaşdırmaqla yanaşı, liderlik və kollektiv məsuliyyət kimi komponentləri də mərkəzə çəkir (Məmmədzadə, 2025).

Azərbaycan hərbi təhsil sistemində son illər həyata keçirilən islahatlar — Milli Müdafiə Universitetinin yaradılması, NATO standartlarının tətbiqi, komandir hazırlığı proqramlarının yenilənməsi və simulyasiya texnologiyalarının geniş istifadəsi — bu tendensiyanın konkret təzahürləridir.

**Bu proses pedaqoji baxımdan iki əsas istiqamətdə özünü göstərir:**

1. Tədrisin interaktivləşdirilməsi və fərdiləşdirilməsi — kursantların fəal iştirakına əsaslanan təlim formalarının tətbiqi;
2. Liderlik kompetensiyalarının inkişafı — qərarvermə, strateji düşüncə və situasiya analizinə yönəlmiş pedaqoji texnologiyaların inteqrasiyası (Əhmədov, 2024).

Hərbi təhsildə liderlik komponenti müasir dövrdə yalnız əmrlərin icrası və tabelik münasibətləri ilə deyil, həm də kollektivin motivasiyası və etik mühitin idarə olunması ilə müəyyən edilir. Bu baxımdan, təlim prosesinə emosional intellekt, sosial məsuliyyət və dəyərlərəsaslı liderlik anlayışlarının daxil edilməsi vacibdir (Northouse, 2021).

Müasir liderlik hazırlığında tətbiq olunan pedaqoji texnologiyalar əsasən problem yönümlü təlim, simulyasiya və ssenari təlimləri, komanda əsaslı təlim, reflektiv tədris və *case-study* metodlarına əsaslanır. Bu yanaşmalar hərbi kursantlarda tənqidi düşünmə, çevik qərarvermə və stress şəraitində liderlik keyfiyyətlərinin inkişafına xidmət edir (Mammadzada, 2025).

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 33-36
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 33-36
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Pedaqoji baxımdan bu model təcrübi öyrənmə nəzəriyyəsi və andragogika prinsiplərinə (Knowles, 1984) əsaslanır. Bu nəzəriyyələrə görə, kursantların öyrənməsi praktiki təcrübə, müstəqil qərarvermə və özünürefleksiya üzərində qurulmalıdır. Nəticədə, liderlik hazırlığı yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də təcrübə və davranış səviyyəsində formalaşan kompetensiyaların inkişafı kimi qəbul edilir.

Azərbaycan hərbi təhsilinin fərqli cəhətlərindən biri onun milli-mənəvi və vətənpərvərlik dəyərlərinə əsaslanmasıdır. Liderlik təkcə texniki və idarəetmə bacarığı deyil, həm də mənəvi məsuliyyətin daşıyıcısı olmaq deməkdir (Nağızadə, 2025).

Vətən müharibəsindən sonra formalaşan Zəfər ideologiyası, hərbi tədris proqramlarında liderlik anlayışının mənəvi aspektlərinin dərinləşməsinə səbəb olmuşdur. Bu istiqamətdə aparılan pedaqoji fəaliyyət aşağıdakı əsas komponentlər üzrə sistemləşir: milli dəyərlər üzərində qurulmuş tədris məzmunu, hərbi etik kodeksin öyrədilməsi və davranış mədəniyyətinin formalaşdırılması, mənəvi-psixoloji hazırlığın təlim prosesinə inteqrasiyası.

Liderlik hazırlığında mənəvi istiqamətlənmənin tədrisə daxil edilməsi kursantlarda milli kimlik, vətənə sədaqət və mənəvi məsuliyyət hissini gücləndirir. Bu, pedaqoji baxımdan dəyərlər təlimi və etik təhsil konsepsiyaları ilə üst-üstə düşür.

Beləliklə, müasir hərbi liderin yetişdirilməsi prosesi yalnız akademik biliklərlə deyil, həm də milli-mənəvi dayanıqlılığın formalaşdırılması ilə tamamlanır.

Müasir hərbi təhsil sistemində liderlik hazırlığının pedaqoji əsasları çoxşaxəli bir prosesdir. Tədris metodlarının yenilənməsi, interaktiv texnologiyaların tətbiqi, milli və mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası bu istiqamətdə mühüm nəticələr doğurmuşdur. Liderlik tərbiyəsi pedaqoji baxımdan həm elmi bilik, həm də şəxsiyyətin formalaşması prosesidir.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Azərbaycan ali hərbi təhsil sisteminin inkişafında liderlik və pedaqoji yanaşmaların qarşılıqlı inteqrasiyası zəkalı, məsuliyyətli, strateji düşüncəli və mənəvi baxımdan möhkəm zabit korpusunun formalaşmasına xidmət edir. Bu baxımdan, hərbi pedaqogika müasir təhlükəsizlik çağırışlarına cavab verən liderlik mədəniyyətinin elmi və metodoloji bazasını təşkil edir.

## Ədəbiyyat

1. Əhmədov, H. (2024, Aprel 25). Azərbaycanın təhsil sistemi milli təhlükəsizlik kontekstində. *525-ci qəzet.*
2. Knowles, M. S. (1984). *Andragogy in action: Applying modern principles of adult learning.* San Francisco, CA: Jossey-Bass.
3. Mammadzada, M. (2025). New approaches in military personnel training: A pedagogical evaluation of teaching methods. *Social Development and Security*, *15*(4).
4. Məmmədzadə, M. (2025). Azərbaycanda ali hərbi təhsilin inkişafının tarixi-pedaqoji tədqiqi. *Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal*, *5*(3), 15–20.
5. Nağızadə, A. (2025). Dövlət müstəqilliyini şərtləndirən əsas amillərdən biri kimi milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması. *Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərləri*, *92*(1), 56–62.
6. Northouse, P. G. (2021). *Leadership: Theory and practice* (9th ed.). Thousand Oaks, CA: Sage Publications.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 37-40
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 33-40
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Əli Qasımov**
Naxçıvan Müəlimlər İnstitutu
doktorant
https://orcid.org/0009-0003-9826-3553
aliisa666@yahoo.com

# İngilis dilinin peşə frazeologiyasının üslub imkanları

***Açar sözlər:*** *dil, ifadə, frazem, peşə*
***Keywords:*** *language, expression, phraseologism, profession*

İdiomlar insan fəaliyyətinin bütün sahələrinin nümayəndələri tərəfindən yaradılmış aydın, canlı və ifadəli nitq vahidləridir. Müxtəlif ixtisas sahibləri nitqlərində öz sahələrinə məxsus məcazi birləşmələrdən istifadə etdikcə bu ifadələrin bəziləri daha geniş mənaya malik olmuş və çox vaxt yumoristik şəkildə istifadə edilmişdir. Tədricən bu ifadələr ədəbi dilə daxil olmuş, onu daha da formalaşdıraraq zənginləşdirmişdir. Frazeoloji vahidlər müxtəlif dillərdə əsaslı şəkildə fərqləndiyi üçün onu dil və mədəniyyətin unikal qarşılıqlı təsiri kimi xarakterizə etmək olar. “İdiomların mənşəyi insanların mentaliteti ilə sıx bağlıdır” (Küçükler, 2021, p. 307). İngilis mədəniyyətinin təhlilində idiomatik vahidlərin müxtəlif paradiqmaları üzə çıxır. Üslub meyarları nəzərə alınaraq idiom vahidlərinin xüsusiyyətləri fərqləndirmək onların maraqlı məqamlarını ortaya qoyur. Belə vahidlər öz tərkibində üslubi rəngarənglik baxımından əhəmiyyətli dərəcədə fərqlənən müxtəlif qatların müəyyən edilməsinə imkan verir. “Frazeologiya həmçinin müəyyən bir dilə, istənilən yazıçıya və ya ədəbi əsərə xas frazeoloji vahidlər toplusu kimi də adlandırılır” (Atkinson, 2010, p. 320). Müxtəlif peşələrlə bağlı idiomların maraqlı üslub xüsusiyyətləri vardır. S.Fedorenko

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Kanada yazıçısı Lusi Mod Montqomerinin *Yaşıl Damlı Ann* romanında 43 ədəd peşə-sənaye ifadələrini araşdırmışdır (Fedorenko, 2020, p. 61). Deməli, belə frazemlər təkcə gündəlik danışıqda yox, həm də müxtəlif üslublu ədəbi əsərlərdə işlənir. İngilis dilində müxtəlif peşə və sənətin özünəməxsusluğunu göstərən *baker* (çörəkçi), *cobbler* (dərzi), *cook* (aşpaz), *driver* (sürücü), *fisher* (balıqçı), *hunter* (ovçu), *nurse* (tibb bacısı), *tailor* (tikici), *shepherd* (çoban) anlayışları ilə bağlı frazeoloji vahidlər vardır. Bu baxımdan, ingilis dilində çörəkçiliklə bağlı bir sıra frazemlər diqqəti çəkir.

Çörəkçiliklə (*baker* peşəsi ilə) bağlı ingilis dilində tarixi atalar sözləri və deyimlər çox vaxt orta əsrlərdən gələn sosial-məişət ənənələri ilə bağlıdır. Məsələn, ingilis dilində 13 ədəd mənasındakı *baker's dozen* ifadəsi maraqlı frazemlərdəndir. Orta əsrlərdə İngiltərədə çörəkçilər çörəyi çəkisinə görə satırdılar. Əgər çörək bir az da yüngül çıxsa, alıcıların narazılığı və ya hətta dövlətin cəzası ilə üzləşirdilər. Buna görə də çörəkçilər təhlükəsizlik üçün 12 çörəyə birini də əlavə edirdilər. Beləcə, *baker's dozen* sabit ifadə kimi dilə keçmişdir. Çörəkçiliklə bağlı *Never trust the baker's scales* ("Çörəkçinin tərəzisinə inanma") ifadəsi də qədim ingilis atalar sözüdür. Yəni kiminsə vədinə, hesabına tam güvənmə. Bu ifadə çox vaxt aldatma ehtimalı olan işlərdə ehtiyatlı olmağın zəruriliyini bildirir. Orta əsrlərdə bəzi çörəkçilər alıcıları aldatmaq üçün tərəzidə çörəyi olduğundan ağır göstərirdilər. Ona görə belə bir deyim yaranmışdır. Bu da insanların ümumən "kiməsə gözü bağlı inanma" mənasında işlətdikləri məsələ çevrilib. Məsələn: *He says he will finish the work tomorrow, but never trust the baker's scales* ("O deyir ki, işi sabah bitirəcək, amma çörəkçinin tərəzisinə inanma", yəni sözünə tam güvənmə).

*As the baker's hand is, so is the bread* ("Yəni çörəyin keyfiyyəti çörəkçinin sənətindən asılıdır" və ya "çörəkçinin əli

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 37-40
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 33-40
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

necədirsə, çörək də elədir”). *As the baker's hand is, so is the bread* qədim bir ingilis məsəlidir. Yəni işin keyfiyyəti ustadan, sənətkardan, işi görən adamdan asılıdır. Usta yaxşıdırsa, məhsul da yaxşı olar. Bu ifadə Azərbaycan dilindəki aşağıdakı deyimlərə uyğun gəlir: “Usta yaxşı olsa, iş də yaxşı olar”, “Necə bişirsən, elə yeyərsən”, “Hər iş ustasından bilinər”. *The baker's wife always eats the worst bread* köhnə ingilis atalar sözüdür. Mənası belədir: “Çörəkçinin arvadı həmişə ən pis çörəyi yeyər”. Yəni usta ən yaxşı məhsulunu başqalarına (müştərilərə) saxlayır, özü isə qalıqlarla kifayətlənir və ya insanlar çox vaxt öz peşələrinin faydasından başqaları qədər yararlana bilmirlər. Azərbaycan dilində aşağıdakı fikirlərə uyğun gəlir: “Dərzinin cibi cırıq olar”, “Dərzi özünə paltar tikməz”, “Pinəçi ayaqqabısız gəzər”, “Misgər mis qabdan yeməz”.

İngilis dilindəki *God sends the baker meat, but the Devil sends him cooks* çox qədim deyimdir. Mənası belədir: “Bəzən bir işi Allah asanlaşdırır, amma insanlar özləri çətinləşdirirlər”. Azərbaycan dilində oxşar məna daşıyan məsəllər aşağıdakılardır: “Yaxşı atı pis yəhər korlayar”, “Yaxşı neməti pis adam korlayar”, “Allah verər, qul tanımaz”.

*To blow hot and cold like a baker's oven* ifadəsi dəyişkən, sabit olmayan insanları təsvir etmək üçün işlədilir: *He keeps changing his mind, blows hot and cold like a baker's oven* (“O daim fikrini dəyişir, çörəkçi sobası kimi gah isti, gah soyuq olur”). *Baker's blessing: May your oven never cool* çörəkçilər arasında işlənən qədim bir alqışdır: “Ocağın heç vaxt sönməsin”, yəni işin-gücün daimi olsun. Bu tip ifadələrin çoxu orta əsr İngiltərəsinin gündəlik həyatından qalıb və həm peşə frazeologiyasına, həm də məişət nitqinə çevrilib.

Alimlər idiomatik vahidlərin sintaqmatik əlaqələrini müəyyən leksik vahidlər dairəsi ilə uyğunlaşma imkanları ilə izah edərək bəzi frazemlərin məhdud uyğunlaşma xüsusiyyətinə

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

malik olduğunu göstərirlər. Əksər idiom vahidləri bir mümkün söz mənası ilə xarakterizə olunur, onların semantik quruluşu kifayət qədər monolitik və parçalanmazdır.

Araşdırma ingilis dili peşə frazeologiyasının üslub baxımından zəngin və çoxcəhətli olduğunu göstərir.

## Ədəbiyyat

1. Atkinson, J. (2010). *Problematic idiomatic attic*, 599.
2. Fedorenko, S. (2020). Lingvostilisticheskiy aspekt issledovaniya frazeologizmov v romane Lysy-Mod Montgomeri «Enn iz zelenykh krysh». *Advanced Linguistics, 6*, 57–61.
3. Küçükler, H., & Murzacı, M. (2021). Lexico-phraseological features in English language teaching. *Dil ve Edebiyat Araştırmaları Dergisi (Rumeli)*, 307–328.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 41-44
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 33-36
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Günəş Məmmədova**
Azərbaycan Milli Elmlər Akademiyası
dissertant
https://orcid.org/0009-0002-1296-4969
gunes.ehmedova.89@mail.ru

# 1989-1999-cu illərdə Günter Qrassın yaradıcılığında özünü göstərən siyasi meyllər

***Açar sözlər:*** *Günter Qrass, Almaniya ədəbiyyatı, siyasi çıxışlar, Berlin divarı, yazıçı və siyasət*
***Keywords:*** *Gunter Grass, German literature, political speeches, Berlin Wall, writer and politics*

Alman ədəbiyyatının və incəsənətinin görkəmli nümayəndəsi Günter Qrass ölkəsində və dünyada baş verən hadisələrə biganə qalmamışdır. 1989-cu ilin noyabrında Berlin divarının açılması Günter Qrass üçün gözlənilməz olmadı. O, buna hazır idi. O dövrdə Almaniyanın bölünməsi və yenidən birləşməsi ilə bağlı məsələlərdə Qrass esseləri və siyasi çıxışları ilə xüsusi fəallıq göstərmişdi. Hadisələr sürətlə baş verdiyi üçün qısa müddətdə müsahibələr, nitqlər meydana çıxmış və artıq real, konkret təkliflər əks olunmuşdur. Yazıçı dinc yolla baş verən dəyişiklikləri təqdir etsə də, millətçilik hisslərinin sürətlə yayılmasının yaratdığı təhlükələrdən narahat idi. Yazıçı qeyd edirdi ki, Almaniyanın Avropanın mərkəzində yenidən iqtisadi və hərbi baxımdan güclənməsi "əvvəlki dünya müharibələrinin başlanğıc nöqtəsi" olmuş bir ərazidə baş verdiyi üçün qonşu ölkələr üçün təhlükəli ola bilər (*Werke in zehn Bänden*, Bd. 6, p. 437, 1987).

Qrass dərhal birləşmə əvəzinə, hər iki tərəf arasında siyasi əməkdaşlıq və birlik formasında konfederasiya qurulmasını

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

təklif etmişdi. O düşünürdü ki, bu birlik sadəcə siyasi cəhətdən deyil, həm də ortaq mədəniyyət əsasında yaradılmalıdır (*Der Spiegel*, 1989).

"İn deutscher Lastenausgleich" ("Alman yükünün bölüşməsi") və "Deutschland, einig Vaterland?" ("Almaniya, birləşmiş vətən?") əsərlərində o, Şərqi Almaniyanın Qərbi Almaniyaya birləşdirilməsi əvəzinə, onun demokratik və sosialist bir model olaraq qorunub saxlanmasını və gücləndirilməsini tələb edirdi. Çünki Şərqi Almaniya xalqı "bütün almanların uduzduğu ikinci dünya müharibəsinin yükünü daşıyıb". Buna görə də Şərqi Almaniyanın iqtisadiyyatını canlandırmaq üçün Qərbi Almaniya tərəfindən ciddi maddi dəstək göstərilməlidir (*Novemberland: 13 Sonette*, 1993).

Yazıçı həmçinin qeyd edirdi ki, Şərqi və Qərbi Almaniya dərhal tam birləşmək əvəzinə, əvvəlcə bir konfederasiya şəklində əməkdaşlıq etməli idi. Bu mərhələdən sonra isə regional idarə olunan və multikultural bir Almaniya formalaşmalı, Avropa İttifaqına üzv olmalı idi. Bu cür mərhələli və düşünülmüş addımlar atmaq daha doğru olardı. Bu yol Almaniyanın tarixən müxtəliflik üzərində qurulmuş milli kimliyinə uyğun olardı və millətçi qüvvələrin güclənməsinin qarşısını alardı. Həm də belə bir cəmiyyət daha inkluziv olardı; əcnəbilərə, müvəqqəti işçilərə və qaçqınlara cəmiyyətin bərabərhüquqlu üzvləri kimi yer verilməsinə şərait yaradardı (*Deutscher Lastenausgleich*, 1990).

Yazıçı həmçinin Almaniya mediasında siyasi müxtəlifliyin itirilməsindən şikayətlənirdi. Onun fikrincə, mətbuatda artıq müxtəlif siyasi baxışlara yer verilmir. Almaniyanın yenidən birləşməsi nəticəsində siyasi spektrin həm sağ, həm də sol qanadlarındakı müxtəlif fikirlər yox olub — hər şey yeknəsəq bir mərkəzdə cəmlənib. Bu da siyasi debatların və fərqli baxışların sıxışdırılmasına səbəb olmuşdu.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

O, yenidən güclənən alman millətçiliyinin təhlükələri barədə dayanmadan xəbərdarlıq edirdi. “Auschwitz” anlayışı altında o, Almaniyanın son dövrlərdəki tarixinin ən faciəli məqamlarını bir-biri ilə əlaqələndirir. “Auschwitz” II Dünya müharibəsi zamanı nasist Almaniyası tərəfindən yaradılmış ən böyük konsentrasiya və soyqırım düşərgəsidir. Bu ifadə həmçinin “yəhudi soyqırımının simvolu” kimi də qeyd olunur. Yazıçı 1990-cı ildə “Schreiben nach Auschwitz” (“Auschwitzdən sonra yazmaq”) əsərində qeyd etmişdi ki, əgər Almaniya həmin dövrdə bir güc və idarəetmə sisteminə malik olmasaydı, belə bir planlı soyqırımı həyata keçirə bilməzdi. “Auschwitz”in heç vaxt sonunun olmayacağının fərqində olmaq onun yaradıcılığının təkan nöqtəsi oldu.

Artıq Qrass öz tənqidlərini ədəbiyyat vasitəsilə roman, esse və digər bədii əsərlərində daha incə və simvolik şəkildə ifadə etməyə başlamışdı. Onun etirazı artıq siyasi tribunada deyil, ədəbiyyat daxilində öz yerini tapırdı. Yazıçının 1993-cü ildə yazdığı *Novemberland* (“Noyabr ölkəsi”) əsəri 1990-cı ildə baş verən zorakılıqlara, xüsusilə Möllndə yaşanan hadisəyə ictimai və ədəbi cavabdır. Qrass 13 sonet və 13 sepya texnikası ilə çəkilmiş rəsm əsərləri ilə Almaniyanın yenidən birləşməsindən sonra yaranan siyasi vəziyyəti və cəmiyyətin kədərli durğun ovqatını payızın hüznlü havası ilə müqayisə edərək təqdim edirdi. Bu, həm simvolik, həm də tənqidi yanaşma idi. “Cüzi bir həzzdən sonra tamamilə yandırılıb məhv edilmiş Almaniya, qışqırıq və sarsıntı içərisində diz çökür. Artıq kişi gücü yoxdur, amma minlərlə irqçi gənclər zorakılığın simvoluna çevrilmişdir.”

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

## Ədəbiyyat

1. Deutscher Lastenausgleich. (1990). *Wider das dumpfe Einheitsgebot*. Frankfurt am Main.
2. Der Spiegel. (1989, 20 Noyabr). SPIEGEL-Gespräch: *Viel Gefühl, wenig Bewusstsein*, 47.
3. Novemberland: 13 Sonette. (1993). Göttingen.
4. Werke in zehn Bänden (Bd. 6, 437). (1987). Hg. Volker Neuhaus. Darmstadt/Neuwied.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 45-46
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 45-46
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Nabat Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
dissertant
https://orcid.org/0009-0008-4325-4533
nabatahmedova1985@gmail.com

# Təlim tərbiyə prosesində milli dəyərlərin formalaşması

***Açar sözlər:*** *şagird, milli dəyərlər, müəllim, valideyn, təlim-tərbiyə prosesi*
***Keywords:*** *student, national values, teacher, parent, educational process*

Bir uşağın təlim-tərbiyəsi onun doğumundan öncə valideynlərin təlim-tərbiyəsi ilə başlayar. İnsan şəxsiyyətinin formalaşmasında mühüm yeri olan ailə həm də cəmiyyətin təməlidir. Bu təməl möhkəm olduqda sağlam fərdlər yetişə bilər, sağlam cəmiyyət formalaşa bilər.

Gəlin etiraf edək ki, təlim-tərbiyənin təməli ailədə atılır, məktəb isə bu prosesə daha sonra qoşulur. Ailə ilə bərabər məktəbin də rolu danılmaz olur. Bu isə o deməkdir ki, təlim-tərbiyə prosesində milli dəyərlərin formalaşması həm ailənin, həm də məktəbin üzərinə düşür.

Bəs milli dəyərlərimizin mahiyyəti nədir? Milli dəyərlər dedikdə əsrlərdən bəri qoruyub saxladığı, onu digər xalqlardan fərqləndirən mədəni və sosial xüsusiyyətlər nəzərdə tutulur. Burada din, dil, adət-ənənələr, ədəbiyyat, musiqi, ailə bağları və milli mentalitet daxildir. Bu dəyərlər keçmişin yadigarı deyil, həm də bu günün dayağıdır. Milli dəyərlər gələcəyin inkişaf istiqamətidir.

Təlim prosesində milli dəyərlərin öyrədilməsi şagirdlərdə öz xalqına bağlılıq, hörmət yaradır. Şagirdlər milli qəhrəmanların həyat yolu və tarixi hadisə və faktlarla tanış olduqca öz kimliklərini dərk edirlər. Milli dəyərlər böyüyə hörmət etməyi, kiçiyə qayğı göstərməyi öyrədir. Şifahi xalq ədəbiyyatımızda olan atalar sözləri, bayatılar və dastanlar tərbiyəvi prosesin mühüm vasitəsidir. Milli musiqi, əsgər marşı, himnimiz şagirdlərdə milli ruhu yüksəldir. Milli dəyərlərin təbliği, Vətənə sevgi, gənclərin milli ruhda böyüməsi şərtdir. Buna görə də məktəblərdə tarix, ədəbiyyat və milli bayramların keçirilməsi mühüm əhəmiyyətə malikdir.

Milli dəyərlərin, adət-ənənələrin təkcə məktəbdə yox, ailədə başlıca olaraq inkişaf etməsi vacibdir. Uşaqlar ilk milli dəyərləri ailədən öyrənir. Milli yeməklərin hazırlanması, adətlərin yaşadılması uşaqlarda milli kimliyi formalaşdırır. Ailələrdə milli bayramların, adət-ənənələrin təşkili uşaqların yaddaşında iz buraxır.

Bütün bunlar göstərir ki, təlim-tərbiyə prosesində milli dəyərlərin rolu həm fərdi, həm də ictimai səviyyədə böyükdür.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Nərmin Həmidova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İstitutu
doktorant
https://orcid.org/0009-0009-5178-040X
hemidovan90@gmail.com

# Kamilo Xose Sela əsərlərinin problematikası

***Açar sözlər:*** *Kamilo Xose Sela, Ispan ədəbiyyatı, roman, sosial mühit, insan psixologiyası*
***Keywords:*** *Camilo Jose Cela, Spanish literature, novel, social environment, human psychology*

XX əsrin görkəmli ispan yazıçılarından olan Xose Sela özündən sonra böyük irs buraxmışdır. O, nəinki İspaniyada, həmçinin bütün dünyada öz əsərləri və onların özünəməxsusluğu ilə şöhrət qazanmışdır. Yazıçının yaradıcılığında mühüm yer tutan əsərlərinin yarandığı dövr İspaniyanın tarixi-siyasi dövrünün təlatümlü zamanlarına təsadüf edir. Belə ki, 1936-cı ildə solçu siyasi qüvvələrlə general Fransisko Frankonun başçılıq etdiyi sağçı mühafizəkarlar arasında baş verən vətəndaş müharibəsi 1939-cu ildə Frankonun qələbəsi ilə başa çatmışdır. Bundan sonra İspaniyada diktatura rejimi qurulmuşdur. Bu rejim Frankonun ölümünə qədər, yəni 1975-ci ilə qədər davam etmişdir. Siyasi çaxnaşmalı dövr təbii ki, insanlara əhəmiyyətli dərəcədə təsir etmiş, onları nəinki sosial-iqtisadi, həmçinin mənəvi-psixoloji cəhətdən sarsıtmışdır. Xose Sela da əsərlərində məhz bunu göstərməyə çalışmışdır.

Yazıçıya böyük şöhrət gətirmiş və bir növ onun vizit kartına çevrilmiş *Paskual Duarte ailəsi* romanı 1942-ci ildə yazılıb. Bu əsərlə Sela İspaniyada baş verən iztirabları, dəhşətləri və

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 47-49
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 47-49
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

mübarizəni göstərməyə çalışır. *Paskual Duarte ailəsi* əsəri ilə ispan ədəbiyyatında "dəhşətli realizm"in əsası qoyulur və bu əsər Migel de Servantesin *Don Kixot* əsərindən sonra ən məşhur ispan romanı hesab olunur. Hətta bəzi tənqidçilər bu fikirdədir ki, ispan ədəbiyyatında *Paskual Duarte ailəsi* ilə müqayisə oluna biləcək əsər tapmaq çətindir.

Roman vaxtilə bir sıra amansız qətllər törədən və indi öz edamını gözləyən bir insanın dilindən verilir. Həmin şəxs sevgisiz və yoxsulluq içində böyüməsindən danışır. Daha sonra hadisələr sürreal və qrotesk üslubda qəhrəmanın öz qurbanlarını amansız şəkildə öldürməsindən bəhs edir. Belə bir əsərlə Xose Sela vətəndaş müharibəsindən sonrakı dövrdə ispan cəmiyyətində insanların daxili-mənəvi dünyasının necə uçuruma doğru sürükləndiyini, sadə ispanlıların tragik taleyini, yoxsulluğun və çarəsizliyin gətirdiyi bədbəxtlikləri göstərir.

1951-ci ildə K. X. Selanın daha bir romanı işıq üzü görür. *La Colmena* ("Arı pətəyi") əsərində də daha çox vətəndaş müharibəsi sonrası və Franko rejimi altında əzilən xalqın sosial-psixoloji vəziyyəti göz önünə sərilir. Romanda hadisələr konkret bir süjet xətti boyunca irəliləmir. Burada yazıçı heç bir konkret hadisə danışmadan sanki həyatdan bir parça təsvir edir. Əsərdə 160 personaj təsvir olunub. Onların hamısının yolu Dona Rosanın kafesində kəsişir. Personajların biri digərinə bənzəmir. Hər kəsin fərqli taleyi, fərqli xarakteri var. Lakin onları birləşdirən tək şey mənəvi boşluq, sosial yalnızlıq hissidir. Selanın da göstərmək istədiyi məhz bu idi — siyasi-iqtisadi vəziyyətin xalqın psixoloji durumuna təsirini təsvir etmək.

Bundan başqa, K.X.Selanın müəllifi olduğu *İki ölü üçün mazurka* adlı romanı da vardır ki, burada da yazıçı postmüharibə dövründəki travmaları göstərməyə çalışır. Bu roman da konkret süjet xətti olmayan fraqmentlər halında yazılıb. Yazıçının məqsədi bu üsulla cəmiyyətin parçalandığını, insanların talelə-

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

rinin yarımçıq qaldığını göstərmək idi. Belə bir üsulla Sela müharibədən sonrakı xaosu göstərir.

Yuxarıda göstərilən romanlardan başqa, yazıçının yaradıcılığında digər romanlar, hekayələr, şeirlər, yol qeydləri kimi əsərləri var. Yaradıcı nümunələrində fərqli mövzulara toxunsa da, əsərlərinin əsas problematikası postmüharibə dövründə ispan cəmiyyətindəki sosial-psixoloji durumu, insanların mənəvi iztirabını, yalnızlığını, daxili boşluğunu, mənəvi dəyərlərini itirib insan həyatının belə dəyərsizləşdiyini göstərmək idi. Xose Sela bir növ həmin dövr cəmiyyətinə, insanına güzgü tutmağa çalışırdı.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 50-55
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 50-55
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Mahirə Abdullayeva**
Azərbaycan Dövlər Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-6539-0201
mahiremovlud56@mail.ru

# İnnovasiyaların əhəmiyyəti

***Açar sözlər:*** *innovasiya, təhsil, elm, inkişaf, Azərbaycan*
***Keyworlds:*** *innovation, education, science, development, Azerbaijan*

**İnnovasiya nədir?**

İnnovasiya – yenilənmə, yaxşılaşma, təkmilləşmə deməkdir, başqa cür desək, innovasiya yeniliyin məzmunu və reallaşmasıdır.

**İnnovasiyanın müxtəlif növləri var:**

1. Məhsul innovasiyası – yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılması ilə bağlı yenilik növüdür.
2. Proses innovasiyası – biznes proseslərinin yenidən dizaynı və ya təkmilləşdirilməsi ilə bağlı yenilik növüdür. Bu, xərcləri azaltmaq, səmərəliliyi artırmaq məqsədi güdür və eyni zamanda daha tez və effektli həyata keçirilməsidir.
3. Xidmət innovasiyası – yeni və ya təkmilləşdirilmiş xidmətlərin göstərilməsi ilə bağlı yenilik növüdür.
4. Bazar innovasiyası – marketinq strategiyalarının və biznes modellərinin yenidən dizaynı ilə bağlı yenilik növüdür.
5. Sosial innovasiya – sosial problemlərin həlli və ya sosial dəyər yaratmaq üçün yeni ideya və yanaşmalardan istifadə ilə bağlı yenilik növüdür və s.

İnnovasiyalardan danışarkən onun təhsillə sıx əlaqəsini qeyd etmək lazımdır. Bildiyimiz kimi, testlərdən təhsilin bütün pillələrində geniş şəkildə istifadə olunur və bu da yaradıcılığın

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

inkişafına mane olur. Bəzi sahələrdə artıq testlərdən imtina olunmuş və ya qismən məhdudlaşdırılmışdır. Bu baxımdan, TRİZ nəzəriyyəsinin ölkəmizdə təhsil proqramlarına daxil edilməsi rəqabətədavamlı, kreativ düşüncəli gələcək nəslin yetişməsinə dəstəkdir.

**Bəs baxaq görək, TRİZ-in açması nə deməkdir? Bunu rus dilində daha doğru izah etmək olar:**

T – teoriya

R – reşeniya

İ – izobretatelnıx

Z – zadaç.

Tərcümədə isə belə səslənəcək: kəşfedici tapşırıqların həll edilməsi nəzəriyyəsi.

İnnovasiya fəaliyyətinin məqsədi yeni informasiyanı əldə etməklə onu operativ şəkildə tətbiq etməyi tələb edir. Əks halda bu innovasiyalar “yatıb qalar”.

Çin filosofu Konfutsinin dediyi kimi: “Elm və təhsildən faydalanmağı bacaran xalq firavan yaşayar”. İnnovasiyaların idarə olunmasını isə menecment elmi öyrənir, yəni innovasiyaların idarə edilməsi. Hazırda bu peşə sahəsi inkişaf etməkdədir.

İnsan fəaliyyətində innovasiyalardan geniş istifadə edir. Son illərdə bu sahədən, yəni innovasiyalar haqqında çox danışılır. Bu isə İKT-nin sürətli inkişafı və onun müxtəlif sahələrdə tətbiqləri hesabına çoxsaylı yeni innovasiyaların yaradılması, tətbiqlərinin operativliyi, iqtisadi səmərənin yüksəldilməsi ilə əlaqədardır.

İnnovativ yaradıcı insan qeyri-standart təfəkkürə, yüksək savada, sahibkarlıq qabiliyyətinə malik olmalıdır. Bütün bunlar isə yüksək keyfiyyətə malik təhsil alma hesabına formalaşa və inkişaf edə bilər. Deməli, innovasiyaların yaranmasında, daha doğrusu, innovativ inkişafda birinci növbədə təhsilin təsiri böyükdür.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 50-55
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 50-55
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Əslində təhsil tarixindəki bütün islahatlar ictimai inkişafdan irəli gələn innovasiyaların təhsildə sistemli şəkildə tətbiq olunmasına xidmət etmişdir. O zaman da belə bir sual qarşıya çıxır ki, bəs təhsildə innovasiya nə deməkdir?

Təhsildə innovasiya təhsilin iqtisadiyyatı, təşkili və idarə edilməsi, pedaqoq və təhsilalanların birgə əməkdaşlığı nəticəsində dərsin təşkili, müəllim–tələbə əməkdaşlığı kimi nəzərdə tutulur. Təhsildə innovasiyalar təhsil islahatları, inkişaf proqramları çərçivəsində sistemləşdirilmiş, mərkəzləşdirilmiş formada və ya təhsil müəssisəsinin təşəbbüsü ilə lokal formada həyata keçirilə bilər. Belə olan halda pilot layihə şəklində eksperimental fəaliyyət təşkil edilə bilər və onun nə dərəcədə səmərəli olub-olmadığını yoxlamaq olar.

İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal şəraitə uyğun olaraq inkişaf edir. Bu isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyən edilir, məqsədə nail olmaq üçün çox ölkələrdə müvafiq təhsil strategiyaları və inkişaf proqramları hazırlanmış, hazırda isə bu sistem üzrə icraata başlanılmışdır.

Əsası ümummilli liderimiz tərəfindən qoyulan siyasətin uğurlu davamçısı Prezidentimiz İlham Əliyevin imzaladığı *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası* adlı sərəncam məhz təhsildə bu kimi yeniliklərin tətbiqi işinə xidmət edir. Bu strategiyanın icrası innovativ ideyalar əsasında təhsilimizin inkişafına dəstək ola bilər. Burada əsas məqsədlərdən biri ölkəmizdə innovasiyaların inkişafı üçün zəmin yaratmaq, şərait və imkanların işə salınması və son nəticədə rəqabətədavamlı milli innovasiya sisteminin yaradılmasıdır. Müasir dünya bazarına çıxışın açarı məhz rəqabət qabiliyyətli və innovativ sənayenin yaradılması və inkişaf etdirilməsidir. Artıq sənayenin gücü innovativliyin səviyyəsindən asılıdır.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 50-55
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 50-55
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**"Yeniləşmə prosesi üç əsas mərhələdən keçir:**

1. Təşəkkül – yeni kollektivin yaranması və ya kollektivin yenilənməsi.
2. Fəaliyyət – ənənəvi, stabil proqram və pedaqoji texnologiyalar əsasında işin təşkili.
3. İnkişaf – yeni məzmun, forma və texnologiyaların yaradılması və tətbiqi mərhələsi" (Əhmədov, 2014, p. 9).

Azərbaycan Respublikası Prezidentinin 2016-cı ildə imzaladığı fərmanı – *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi*ndə də qeyd edilmişdir ki, ölkəmizin iqtisadiyyatı yaxın gələcəkdə səmərəli innovasiya modelinə keçəcəkdir. Belə olarsa, adambaşına düşən gəlir Şərqi Avropa ölkələri səviyyəsinə yaxınlaşa bilər. Bunun üçün isə rəqabətədavamlı innovasiya sisteminin, bütün sahələrdə innovasiyanı dəstəkləyən infrastrukturun formalaşdırılması lazımdır, çünki innovasiya elmi-texniki inqilabın davamıdır.

"Cəmiyyət inkişaf prosesinin elmi-intellektual əsaslar üzərində qurulmuş yeni innovasion mərhələsinə qədəm qoymuş, Azərbaycanda yüksək ixtisaslı kadrlar hazırlayan yeni-yeni ali və orta ixtisas məktəbləri açılmışdır. Ulu Öndərin 2003-cü il 17 fevral tarixində imzaladığı *Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003–2012-ci illər)* müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində strateji vəzifələri müəyyənləşdirmişdir. İlk dəfə olaraq məhz bu sənəddə dövlətin innovasiya inkişafında elmin rolu önə çəkilmiş, elmtutumlu yeni texnologiyaların inkişafı məsələsi zəruri tələb kimi əksini tapmışdır" (Məmmədov, 2016, p. 5).

Dövlətimiz yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasına çalışır. Bu gün təhsili elmdən ayrı təsəvvür etmək olmaz, çünki

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

təhsil prosesi elmi innovasiyalar əsasında qurulur. Təhsildə və elmdə innovasiyaların tətbiqi uğrunda gedən işlər xalqın milli-mədəni tərəqqisinə və rifahının yüksəlməsinə xidmət edir. Bu baxımdan da elm və təhsilin bir-birinə inteqrasiyası, müasir texnologiyaların və innovasiyaların tətbiq olunması yolu ilə inkişaf etdirilməsi ən aktual məsələlərdən biridir. Təhsil də elm kimi qlobal xarakter daşımalıdır, yəni elm kimi onun da vətəni olmamalıdır, təkcə ümumi evimiz – yer kürəsi olmalıdır.

Onu da qeyd etmək lazımdır ki, bu gün bütün universitetlərimizdə texniki vasitələr yoxdur və istər müəllimlər, istərsə də tələbələr bu vasitələrdən istifadə edə bilmirlər. Bu baxımdan da dünya universitetlərinə inteqrasiya yolu ilə gənclərimizi innovasiyalarla tanış edə bilərik.

ABŞ, Kanada, Yaponiya və digər inkişaf etmiş ölkələrdə elmi innovasiyaların tətbiqindən əldə olunan gəlir çox yüksəkdir. Dünya miqyasında ölkələrin iqtisadi göstəriciləri məhz innovasiyaların gətirdiyi gəlirlə ölçülür.

"Əgər biz bəşəriyyətin inkişafının zirvə nöqtəsini vətəndaş cəmiyyətinin qurulmasında görürüksə, buna yalnız elmi uğurları tətbiq etməklə, təhsilin elmi innovasiyalar əsasında inkişaf etdirilməsi, elm–təhsil islahat əlaqələrinin möhkəmləndirilməsi yolu ilə insanların intellektual səviyyəsini yüksəltməklə nail olmaq olar" (Kazımzadə, 2018, p. 4).

Nəticə olaraq onu deyə bilərik ki, bütün görülən işlər innovasiya və texnoloji inkişafa yönəlmişdir. Bu sahədəki nəzəri və praktik yeniliklərin müzakirəsi isə yeni tədqiqat istiqamətlərinin yaradılması və elmi əməkdaşlıq imkanlarının genişləndirilməsi üçün nəzərdə tutulmuşdur.

Qloballaşma şəraitində informasiya və kommunikasiya texnologiyaları (İKT) mütərəqqi yenilikləri özündə birləşdirir, innovasiya sistemləri hər bir dövlətin ümumi inkişaf səviyyəsindən və potensialından xəbər verir. Bu baxımdan da

Azərbaycan Respublikasında innovativ proseslərin tənzimlənməsi dövlətin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsi olan innovasiya siyasəti vasitəsilə həyata keçirilir.

Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən post-sənaye cəmiyyətinə keçid sayılır. Bu isə hər şeydən əvvəl elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə, əsas da təhsilə öz müsbət təsirini göstərə bilər.

## Ədəbiyyat

1. Əhmədov, İ. (2014, yanvar 31). Azərbaycan müəllimi, 9.
2. Kazımzadə, A. (2018, fevral 1). Elm və təhsildə innovativ yanaşma və innovasiyaların tətbiqi zamanın tələbidir. *52-ci qəzet*, 4.
3. Məmmədov, E. (2016). *Milli iqtisadiyyatın inkişafında innovasiya siyasətinin rolu və əhəmiyyəti* (Magistrlik dissertasiyası). 77.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 56-59
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 56-59
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Oktay Rzayev**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0007-6377-255X
oktay_ rzayev@mail.ru

# Sağlam həyat tərzi və fiziki inkişaf məsələləri

***Açar sözlər:*** *cəmiyyət, sağlam həyat, fiziki inkişaf, sosial sağlamlıq, bədən tərbiyəsi və idman, fiziki mədəniyyət*
***Keywords:*** *society, healthy life, physical development, social health, physical education and sports, physical culture*

Məqalədə cəmiyyətin sosial sağlamlığı hər bir adamın, bütövlükdə xalqın, millətin fiziki sağlamlığı ilə dialektik vəhdət təşkil edir. Sosial sağlamlığın təməlində insanın mühüm şərti dayanır. Öz növbəsində adamların fiziki sağlamlığı cəmiyyətin sosial sağlamlığının zəminidir. Hər bir insan çoxşaxəli və mürəkkəb bioloji varlıq olmaqla cəmiyyətin üzvü kimi ona bu və ya digər dərəcədə inteqrasiya olunur, ictimai münasibətlər sisteminə, bu münasibətlərin obyektinə və subyektinə çevrilir və s. Bu kimi məsələlər öz əksini tapmışdır. Bədən tərbiyəsi və idmanın kütləviləşdirilməsi sağlam cəmiyyətin investisiyasıdır, təminatıdır. Son illərdə Respublikamızda bu sahəyə diqqət artırılmış və mühüm uğurlar qazanılmışdır.

Cəmiyyət həyatı müvəqqəti durğunluqlara, bəzi geriyə atılan addımlara baxmayaraq, son nəticədə yüksələn ox üzrə, köhnədən yeniyə doğru dəyişilir, inkişaf edir. Bu dialektik yeniləşmənin gedişi cəmiyyətin özünü təkmilləşdirə və müasirləşdirə bilməsinin səviyyəsindən asılıdır. Bu prosesi şərtləndirən amillər içərisində ən mühümü cəmiyyətin sosial sağlamlığıdır. Cəmiyyətin sosial sağlamlığı hər bir adamın, bütövlükdə xalqın,

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

millətin fiziki sağlamlığı ilə dialektik vəhdət təşkil edir. Sosial sağlamlığın təməlində insanın mühüm şərti dayanır. Öz növbəsində adamların fiziki sağlamlığı cəmiyyətin sosial sağlamlığının zəminidir. Hər bir insan çoxşaxəli və mürəkkəb bioloji varlıq olmaqla cəmiyyətin üzvü kimi ona bu və ya digər dərəcədə inteqrasiya olunur, ictimai münasibətlər sisteminə, bu münasibətlərin obyektinə və subyektinə çevrilir.

Cəmiyyətin sosial sağlamlığının ən vacib amili fiziki sağlamlığın qarşılıqlı əlaqəsi problemidir. Müasir Azərbaycanın cəmiyyət həyatının sosial sağlamlıq və fiziki sağlamlıq səviyyəsinin qarşılıqlı əlaqəsi məsələsini öyrənmək müstəqilliyə keçid dövrünün çox vacib, mərkəzi problemi olmuşdur. Bununla belə böyük nəzəri və əməli əhəmiyyətli bu problem üzrə nə sosial-fəlsəfi, nə də fiziki mədəniyyət aspektində tədqiqatlar aparılmamışdır. SSRİ-nin mövcud dövrlərində cəmiyyətin sosial sağlamlığı haqqında fikir söyləməyin özü təhlükəli idi. O dövrün tədqiqatları mövcud ideologiyaya uyğun olaraq sosializmin sağlam, kapitalizmin isə qeyri-sağlam olmasının əsaslandırılmasına yönəldilirdi. Sosializmin süqutundan sonrakı dövrdə də bir sıra obyektiv və subyektiv səbəblərlə bağlı bu sahədə tədqiqatlar aparılmamışdır.

Hazırda Azərbaycan yeni ictimai quruluşa keçid mərhələsini yaşamaqdadır. Bu mərhələyə məxsus iqtisadi, sosial-siyasi vəzifələrin həlli ancaq cəmiyyətimizin sosial sağlamlaşdırılması və bununla vəhdətdə vətəndaşlarımızın fiziki sağlamlığının möhkəmləndirilməsi, fiziki mədəniyyətin yüksəlişi sahəsində mümkün ola bilər. Bunun üçün ölkəmiz böyük imkanlara malikdir. Bu imkanların reallaşdırılması bir sıra obyektiv və subyektiv amillərlə bağlıdır.

Obyektiv amillər sırasında aşağıdakılar nəzərdə tutulur: sabit və sosial istiqamətli iqtisadiyyatın yaradılması, demokratik islahatların həyata keçirilməsi, möhkəm əmin-amanlıq və

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

ictimai həmrəyliyin mövcudluğu, adamların hüquq və azadlıqlarının hərtərəfli təminatı, onların həyat tərzindəki bəhərlərin vəzifəyə son qoyulması, yoxsulluğun və böyük sosial bərabərsizliyin aradan qaldırılması, əhalinin sosial müdafiəsinin təmin edilməsi və onların işəgötürmə mexanizminin qaydaya salınması, normal sosial-psixoloji mühitin bərqərar olunması, normal həyat tərzinin və həyat qaydalarının cəmiyyətdə qəbul edilməsi və s. Bütün bunlar cəmiyyətin sosial sağlamlığının mahiyyəti və səviyyəsi göstəriciləri reallaşdırılmadan insanın fiziki sağlamlığından, onun möhkəmləndirilməsindən heç bir söhbət gedə bilməz.

Məsələn, ailə vəziyyətini götürək. Hər bir ailə üzvünün fiziki cəhətdən sağlamlığı onların cəmiyyət həyatında normal fəaliyyəti üçün zəruri şərtdir. Ailələr cəmiyyəti də sosial sağlamlıq ola bilməz. Qeyri-sağlam adamın nigaha girməsi, ailə funksiyasını yerinə yetirə bilməsi, uşaqlar tərbiyə edə bilməsi qeyri-mümkündür. Hər bir ailə üzvünün, bütövlükdə bütün ailələrin, xalqın fiziki sağlamlığı üçün cəmiyyətdə normal şərait, normal həyat tərzinin mövcudluğu vacib şərtdir.

Cəmiyyətdə sosial sağlamlıq və adamların fiziki sağlamlığı üçün qeyd edilən obyektiv göstəricilər bəs deyildir. Burada bir sıra subyektiv amillər də əsas rol oynayır. Bu amillər sırasında, xüsusilə də insanın öz orqanizminə münasibəti, ona aid elmə maraq və əmək bacarığı mühüm yer tutur. Məhz buna görə də fiziki mədəniyyətin insanın öz orqanizminə münasibətində mədəniyyəti adlandırılması düzgün olardı.

Bədən tərbiyəsi və idman insanların sağlamlığını möhkəmləndirir və möhkəmləşdirir, müsbət emosiyalar, əhval-ruhiyyələr formalaşdırır, onlara öz mənliyini bildirmək, özünü təsdiq etmək üçün böyük imkanlar verir və hərtərəfli inkişaflarında vacib rol oynayır. Lakin bu, öz-özlüyündə başa gəlmir. Bunun üçün insanın öz bədəninin bütün xüsusiyyətlərinə yaxşı bələd

olması və ona yiyəlik edə bilməsi, sürətlə dəyişən həyat şəraitinə uyğun xüsusiyyətlərdən səmərəli istifadə etməklə işgüzarlıq qabiliyyətini saxlaya bilməsi lazımdır. Bu isə öz növbəsində cəmiyyət üzvlərinin idraki fəaliyyətinin şüurlu, məqsədyönlü seçiciliyinin vacibliyini nəzərdə tutur.

İnsan öz orqanizminin imkanlarından istifadə edilməsində hissiyyatlardan deyil, əqlin gücünə üstünlük verməyi bacarmalıdır. Belə ki, insan orqanizminin daxili ehtiyat mənbələrindən məqsədyönlü, şüurlu istifadədə mühüm halə lazımi qaydada qorunmalıdır. Bununla belə qeyd etməliyik ki, bədən tərbiyəsi və idman sahəsinin inkişafı vacibdir ki, bu sahədə aparılan hər bir iş insan orqanizminin daha sağlam bərpasına, xəstəliklərdən qorunmasına və başqa növlər üzrə, hətta ona qədər cazibədar və dolğun yaşamasına, nəinki rekorda, çox hallarda bərabər səmərəli fəaliyyətə səbəb ola bilər. Bu işdə xəstəliklərə qarşı profilaktikanın əhəmiyyəti çox böyükdür. Bədən tərbiyəsi, fiziki tərbiyə sahəsində işin əsas ağırlığı insanlarda öz bədənlərinə sahiblik etmə və onun məqsədə müvafiq idarə edilmə vərdişinin, sağlamlığın möhkəmləndirilməsinin təmin olunmasına yönəldilməlidir.

Bədən tərbiyəsi və idmanın kütləviləşdirilməsi sağlam cəmiyyətin investisiyasıdır, təminatıdır. Son illərdə Respublikamızda bu sahəyə diqqət artırılmış və mühüm uğurlar qazanılmışdır. Bununla belə, bədən tərbiyəsi və idman sahəsinin kütləviləşdirilməsində böyük iqtisadi, sosial-siyasi və ideoloji vəzifələrin yerinə yetirilməsi şərti ilə mümkün ola bilər. Bütün digər amillərlə yanaşı, adamlarda havaya, suya, yeməyə, paltara və i.a. tələbat olduğu kimi, fiziki hərəkətlərə də daxili tələbat yaranmalıdır. Tədqiqat və təşkilati fəaliyyətimizdə bu problem əsas istiqamətlərdən biri olmalıdır.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 60-64
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 60-64
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Gülər Yaqubova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı
https://orcid.org/0000-0003-1434-6216
guler.mzade56@gmail.com
**Bikə Fərmanzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialı
https://orcid.org/0000-0003-4680-420X
bikefermanzade@gmail.com

# Qlobal tarix və lokal perspektiv: müasir dünyada tarixi tərbiyə

***Açar sözlər:*** *qloballaşma, lokal identiklik, qlobal tarix, milli tarixi yaddaş, mədəni inteqrasiya, tənqidi düşünmə*
***Keywords:*** *globalization, local identity, global history, national historical memory, cultural integration, critical thinking*

Müasir dövrdə qloballaşma prosesi bəşəriyyətin bütün həyat sferalarına təsir edir. İnformasiya axınının sürətlənməsi, mədəni inteqrasiya və sosial qarşılıqlı asılılıq dünyanı vahid sistemə çevirir. Bu şəraitdə təhsil və tərbiyə sahəsində yeni yanaşmaların formalaşdırılması zərurəti meydana çıxır. Xüsusilə, tarix fənninin öyrədilməsi bu kontekstdə mühüm əhəmiyyət daşıyır, çünki tarix yalnız keçmişi deyil, həm də müasir insanın kimliyini, dəyərlər sistemini və dünyagörüşünü formalaşdırır.

Tarixi tərbiyə dedikdə, insanın keçmişi anlama, ondan dərs çıxarma və gələcəyə doğru daha şüurlu şəkildə istiqamətlənmə bacarığı başa düşülür. Bu prosesin uğurlu olması üçün iki əsas konsept – “qlobal tarix” və “lokal perspektiv” arasında düzgün tarazlıq yaradılmalıdır. Yalnız bu halda gənc nəsil həm milli

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

kimliyini qoruyar, həm də qlobal dünyada bəşəri məsuliyyət daşıyan vətəndaşa çevrilər.

**1. Qlobal tarixin elmi və pedaqoji əsasları**

Qlobal tarix anlayışı XX əsrin ikinci yarısından etibarən formalaşmağa başlamışdır. Əgər əvvəlki dövrlərdə tarix daha çox milli və ya regional çərçivədə öyrənilirdisə, müasir dövrdə insanlığın ümumi inkişaf prosesləri və qarşılıqlı təsirlər diqqət mərkəzinə çəkilir. Qlobal tarix bir növ "bəşəriyyətin ortaq yaddaşı" rolunu oynayır.

**Qlobal tarix aşağıdakı pedaqoji məqsədlərə xidmət edir:**

- Tələbələrdə dünya xalqları arasında qarşılıqlı əlaqələr haqqında bilik və anlayış formalaşdırmaq;
- Tolerantlıq, sülh, əməkdaşlıq kimi dəyərləri təbliğ etmək;
- Hadisələrə təkcə milli deyil, ümumbəşəri baxış bucağından yanaşmaq bacarığı yaratmaq.

Bu yanaşma gənclərə tarix hadisələrini daha geniş kontekstdə anlamağa, dünya sisteminin bir parçası olduqlarını dərk etməyə imkan verir. Tarix fənninin bu istiqamətdə tədrisi həm elmi biliklərin zənginləşməsinə, həm də tənqidi düşünmə qabiliyyətinin inkişafına səbəb olur.

**2. Lokal perspektiv və milli tarixi yaddaşın formalaşması**

Qloballaşma şəraitində milli kimliyin qorunması, tarixi yaddaşın itirilməməsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan "lokal perspektiv" anlayışı mühüm rol oynayır. Lokal perspektiv – tarixi hadisələrə milli və regional kontekstdə baxmaq, öz xalqının tarixini daha dərindən öyrənmək və dəyərləndirmək deməkdir.

Milli tarix, insanların kimliyinin və mənəvi dəyərlərinin formalaşmasının əsas dayağıdır. Tarix dərslərində lokal perspektivin qorunması aşağıdakı nəticələrə gətirib çıxarır:

- Gənclərdə milli qürur və vətənpərvərlik hissinin güclənməsi;

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 60-64
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 60-64
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

- Mədəni irsin və milli dəyərlərin gələcək nəsillərə ötürülməsi;

- Cəmiyyətin birliyini və milli həmrəyliyi möhkəmləndirməsi.

Azərbaycan kontekstində bu, xüsusilə əhəmiyyətlidir. Çünki ölkəmiz qədim sivilizasiyaların kəsişmə nöqtəsində yerləşərək həm Şərq, həm də Qərb mədəniyyətlərinin təsirini qəbul etmiş, eyni zamanda öz milli kimliyini qoruyub saxlamışdır.

3. Qlobal və lokal yanaşmalarin tarixi təhsildə inteqrasiyası

Müasir pedaqoji nəzəriyyələr göstərir ki, ən uğurlu təhsil modeli müxtəlif baxış bucaqlarını birləşdirə bilən modeldir. Tarix fənninin tədrisində də qlobal və lokal yanaşmaların inteqrasiyası mühüm rol oynayır. Bu inteqrasiya tələbələrə həm öz milli kimliyini, həm də ümumbəşəri dəyərləri dərk etməyə imkan verir.

**Tədrisdə aşağıdakı inteqrativ üsullardan istifadə edilə bilər:**

- Müqayisəli təhlil metodu – müxtəlif xalqların eyni tarixi hadisələrə münasibətini müqayisə etmək;

- Layihə əsaslı öyrənmə – “mənim bölgəm qlobal tarixdə” kimi layihələrin hazırlanması;

- Mənbə analizi – həm yerli, həm də beynəlxalq sənədlərin birgə araşdırılması;

- Ziqzaq üsulu (Jigsaw) – tələbələrin qrup şəklində müxtəlif mövzular üzərində işləyib nəticələri paylaşması.

Bu metodlar tələbələrdə analitik düşüncə, əməkdaşlıq, tənqidi təhlil və empatiya bacarıqlarını inkişaf etdirir. Nəticədə tarix fənni sadəcə keçmişin öyrənilməsi vasitəsi deyil, həm də sosial və vətəndaşlıq bacarıqlarının formalaşdırılma alətinə çevrilir.

**4. Müasir dövrdə tarixi tərbiyənin funksiyalari və dəyərləri**

Tarixi tərbiyə insanın sosial və mənəvi inkişafında mühüm rol oynayır. O, gənclərə yalnız faktları deyil, həm də bu faktların arxasındakı dəyərləri, ideyaları və nəticələri anlamağı öyrədir. Müasir dövrdə tarixi tərbiyənin əsas funksiyaları aşağıdakılardır:

- Sosial-mədəni identikliyin formalaşdırılması;
- Tənqidi düşünmə və obyektiv qərarvermə bacarığının inkişafı;
- Sülh, ədalət və humanizm kimi dəyərlərin təbliği;
- Qlobal problemlərə qarşı məsuliyyətli münasibətin formalaşdırılması.

Tarixi tərbiyə həm də gənclərə mənəvi dayaq verir. Keçmişin dərslərini dərk edən insan gələcəyin məsuliyyətini daha dərindən hiss edir. Bu mənada, tarix yalnız elmi fənn deyil, həm də həyat məktəbidir.

**5. Azərbaycan nümunəsində qlobal-lokal tarixi paradiqma**

Azərbaycan tarixi həm lokal, həm də qlobal səviyyədə zəngin hadisələrlə doludur. Ölkəmizin yerləşdiyi coğrafi mövqe – Şərqlə Qərbin kəsişməsi – onu daim beynəlxalq əlaqələrin mərkəzinə çevirmişdir.

- Qədim dövrlərdə İpək Yolu üzərində yerləşməsi ticarət və mədəni mübadiləni gücləndirmişdir;
- Orta əsrlərdə Azərbaycan şəhərləri elm, sənət və ticarətin inkişaf mərkəzinə çevrilmişdir;
- XIX əsrdə neft sənayesinin inkişafı ölkəni qlobal iqtisadiyyatın mühüm bir hissəsinə çevirmişdir;
- XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması demokratik dəyərlərin təntənəsi kimi qiymətləndirilir;

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

- Müstəqillik dövründə isə Azərbaycan beynəlxalq səviyyədə regional sabitlik və əməkdaşlıq siyasəti aparmaqla qlobal arenada öz yerini möhkəmləndirmişdir.

Bu nümunələr göstərir ki, Azərbaycan tarixi həm qlobal hadisələrin tərkib hissəsi, həm də öz milli dəyərləri ilə fərqlənən lokal fenomen kimi öyrənilməlidir.

**6. Nəticə və təkliflər**

Nəticə etibarilə, "qlobal tarix və lokal perspektiv" anlayışlarının uzlaşdırılması müasir təhsil sisteminin əsas vəzifələrindən biridir. Tarix fənni həm milli kimliyi möhkəmləndirməli, həm də qlobal dünyagörüşü formalaşdırmalıdır. Bu məqsədlə aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Tarix dərsliklərində qlobal və lokal hadisələr arasında qarşılıqlı əlaqə sistemli şəkildə göstərilməlidir;
2. Müəllim hazırlığında qlobal vətəndaşlıq təhsili komponenti gücləndirilməlidir;
3. Tarixi tədqiqatlarda beynəlxalq müqayisəli yanaşma tətbiq olunmalıdır;
4. Tələbələrin müstəqil tədqiqat, layihə və təqdimat bacarıqları inkişaf etdirilməlidir;
5. Tarixi tərbiyədə milli-mənəvi dəyərlərlə bəşəri ideallarin harmoniyası əsas prinsip kimi qorunmalıdır.

Beləliklə, tarix təhsili təkcə keçmişin hadisələrini öyrətmək deyil, həm də gələcəyin məsuliyyətli vətəndaşlarını formalaşdırmaq missiyasını daşıyır. Bu missiyanın yerinə yetirilməsi üçün qlobal və lokal perspektivlərin vəhdəti müasir tədrisin ayrılmaz tərkib hissəsinə çevrilməlidir.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 65-68
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 65-68
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Aytac Mənsimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0007-9513-0084
aytacmensimova@gmail.com

# Azərbaycan toponimlərinin leksik-semantik xüsusiyyətləri

***Açar sözlər:*** *toponimika, dil tarixi, leksik-semantik, xüsusiyyət, etimologiya*
***Keyswords:*** *toponymy, historical, linguistics, lexical-semantic, characteristic, etymology*

Azərbaycan dilində toponimlər xalqın tarixi yaddaşının, etnik-mədəni ənənələrinin və dil inkişafının mühüm daşıyıcılarından biri kimi çıxış edir. Yer adları yalnız coğrafi məkanların müəyyənləşdirilməsinə xidmət etmir, həm də həmin ərazidə yaşamış tayfaların izlərini, insanların məişətini, təsərrüfat fəaliyyətini və təbiətlə bağlı baxışlarını özündə əks etdirir. Toponimlərdə qədim türklərin dünyagörüşü, dini inancları, yaşayış məkanları, flora və fauna haqqında təsəvvürləri dil vahidləri şəklində qorunub saxlanmışdır.

H.M.Mamayevin hazırladığı vəsaitlər Azərbaycanda yer adlarının tədqiqinə dair ilk nümunələrdəndir. O, yaşayış məntəqələrinin adlandırılması, toponimlərin dəqiqləşdirilməsi, yer adlarının dəyişdirilməsinin hüquqi əsasları, adların transkripsiyası və s. bu kimi məsələlərə toxunmuşdur (Məmmədov, 2007, p. 10).

Toponimlər hər bir xalqın tarixi yaddaş kitabçası rolunu oynayır. Onlarda insanların qədim dövrlərdən indiyə qədər olan məişəti, dini inancları, təsərrüfat fəaliyyəti, təbiət hadisələrinə münasibəti, tayfa və nəsil adları, eləcə də dilin müxtəlif inkişaf

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

mərhələləri əksini tapır. *Toponim* termini yunan mənşəli "topos" (yer, məkan) və "onoma" (ad) sözlərinin birləşməsindən yaranmışdır və "yer adları" mənasını ifadə edir. Toponimlər dilçilikdə xüsusi adların (antroponim, etnonim, hidronim, oronim və s.) bir qolu kimi öyrənilir. Bu elm sahəsi toponimika adlanır.

Toponimlər dilin leksik sistemində özünəməxsus yer tutan, xalqın tarixi yaddaşını, məskunlaşma ənənələrini və etno-linqvistik inkişafını əks etdirən mühüm nominativ vahidlərdir. Yer adlarının leksik-semantik xüsusiyyətləri onların yaranma motivləri, semantik strukturu, məna qrupları, tarixi qatları və dilin inkişafı ilə bağlı dəyişmə prosesləri əsasında müəyyən olunur. Azərbaycan toponimləri çoxqatlı semantik quruluşa malik olub qədim türk leksikasının, eləcə də ərəb və fars mənşəli sözlərin təsiri ilə formalaşmış müxtəlif mənşəli komponentləri özündə birləşdirir.

**1. Təsərrüfat fəaliyyəti ilə bağlı toponimlər**

*Bağbanlar.* "Bağ" coğrafi nomeni ilə formalaşan iki sözdən ibarət toponimlər. Azərbaycanın mikrotoponimlər sistemində bağ adları da çoxdur. "Bağ" coğrafi nomenli toponimlər bəzi şəxslərin, eləcə də müəyyən nəslin nümayəndələrinin müəyyən ərazidə bağ yaratmaları ilə bağlı əmələ gəlmiş coğrafi obyekt adlarını bildirir (Yadigar, 2014, p. 10).

**2. Tayfa və nəsil adları ilə bağlı toponimlər**

*Bəydilli.* "Bəydilli" toponimi qədim oğuz tayfalarından birinin adını əks etdirir. Bəydillilər tarixi mənbələrdə Səlcuqilər dövründən etibarən Azərbaycan ərazisində məskunlaşmış tayfalardan biri kimi tanınır. Bu kəndin adı həmin tayfanın burada məskunlaşmasının izidir. Beləliklə, "Bəydili" toponimi həm etnoqrafik, həm də tarixi məna daşıyır.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 65-68
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 65-68
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

"Adın mənşəyi oğuz-səlcuqların bəydili tayfasındandır. I Şah Abbas zamanında bəydillilərin bir qismi Şiraza və Girmana köçürülmüşlər" (Qurbanov, 1986, p. 8).

**3. Antroponimik mənşəli toponimlər (şəxsi adlardan yarananlar)**

*Əsgərabad.* Əsgərabad kəndinin adı antroponim əsasında yaranmışdır. "Əsgər" burada şəxs adıdır, "abad" isə "salınmış, abad edilmiş yaşayış məskəni" mənasındadır. Beləliklə, "Əsgərabad" – "Əsgərin saldığı kənd" deməkdir. Bu, orta əsrlərdən bəri Azərbaycanda geniş yayılmış advermə ənənəsidir.

**4. Coğrafi mövqe və təsviri xüsusiyyətlərə bağlı toponimlər**

Aranlı. "Aran" sözü Azərbaycan dilində düzənlik, aşağı torpaq, geniş və səthi açıq ərazi deməkdir. "-lı" şəkilçisi isə mənsubiyyət bildirir, yəni "aran olan, düzənlikdə yerləşən yer".

Toponimlərin semantikasını müəyyən edən mühüm amillərdən biri də arxaik leksikanın qorunmasıdır. Müasir dildə işlən-məyən, lakin yer adlarında yaşamaqda davam edən çoxsaylı sözlər dil tarixinin bərpasında xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan toponimlər həm dilin semantik inkişafını, həm də tarixi-coğrafi prosesləri öyrənmək üçün dəyərli mənbədir. Eyni zamanda bəzi toponimlərdə zamanla semantik daralma, genişlənmə və ya məna köçürmələri baş verir ki, bu da leksik-semantik dəyişmələrin tədqiqini aktuallaşdırır.

Nəticə olaraq, toponimlərin leksik-semantik xüsusiyyətləri onların həm dil vahidi kimi strukturunu, həm də sosial, etnik və tarixi funksiyalarını müəyyənləşdirən kompleks məzmun daşıyır. Bu xüsusiyyətlərin araşdırılması Azərbaycan dilinin inkişaf mərhələlərinin, mədəni-tarixi proseslərin və etnolinqvistik əlaqələrin öyrənilməsi baxımından böyük elmi əhəmiyyət kəsb edir.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 65-68
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 65-68
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

## Ədəbiyyat

1. Məmmədov, N. G. (2007). *Toponimika* (dərslik). Bakı Universiteti Nəşriyyatı.
2. Qurbanov, A. (1986). *Azərbaycan onomalogiyası məsələləri*.
3. Yadigar, C. (2014). *Azərbaycan dilinin onomastikası müstəqillik dövründə*. Elm və təhsil.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 69-73
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 69-73
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Aysel Hasanova**
Azerbaijan Institute of Theology
https://orcid.org/0000-0001-6372-280X
ayselgasanova@ait.edu.az

# The Role of Speaking in Teaching English

***Keywords:*** *oral proficiency, pronunciation, monologic speech, dialogic interaction, communication skills*
***Açar sözlər:*** *şifahi səlislik, tələffüz, monoloji nitq, dialoji qarşılıqlı əlaqə, kommunikasiya bacarıqları*

The expansion of Azerbaijan's international relations requires strong oral communication skills, particularly the development of students' English-speaking abilities. Achieving this goal demands the application of innovative teaching methods supported by experimental research. For students to speak English fluently, they must acquire a solid foundation in phonetics, vocabulary, and grammar. Essential tense forms such as the Present, Past, and Future Indefinite serve as the minimum structural basis for expressing ideas clearly and accurately. One of the principal objectives in teaching oral communication is the development of correct pronunciation habits. Oral speech is both a psychological and physiological process influenced by neurological mechanisms and various linguistic and non-linguistic signals (Sokolov, 1960). A supportive extralinguistic environment is therefore crucial to help students speak freely and express their thoughts clearly. Studies indicate that the development of speaking skills should begin with listening; transitioning directly from reading to speaking often creates

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

difficulties, especially in intensive learning contexts (Salistra, 1958).

The methodologist Н. И. Гез emphasized that if teachers expect students to speak fluently, they must introduce special exercises, prepare dialogues, and require students to memorize and reproduce them (Gez, 2008). Such tasks significantly strengthen active oral language production. Another effective approach is the development of speaking through listening comprehension. When teachers read engaging stories aloud and ask students to retell them, learners pay close attention to the material and practice reproducing it with their own linguistic resources (Vaysburd, 2001).

Effective development of oral skills requires careful lesson planning. Teachers must consider each stage of the educational process, prioritizing those that contribute most directly to speaking development. Lexical, grammatical, and phonetic materials should never be taught in isolation: oral proficiency depends on their integration (Seyidov, 1967). A systematic set of exercises addressing all aspects of language is essential for forming practical speaking skills. Accurate oral communication requires not only vocabulary knowledge but also a firm command of grammar, particularly word order. English word order is more rigid than that of Azerbaijani or Russian; once students master it, they can express ideas more precisely and fluently (Tahirov & Salayeva, 1978). Since speaking skills do not develop spontaneously, teachers must incorporate preparatory activities such as pattern drills, sentence-building tasks, and simple dialogues. These activities gradually build the foundation necessary for effective oral speech.

In foreign language teaching, two main forms of oral communication are used: monologic and dialogic speech. Both hold an important place in methodology.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Monologic speech involves a single speaker expressing ideas in a structured, coherent manner. Methodologist M. West regarded monologue as the final stage of language acquisition, arguing that oral speech is successful when the learner fully understands what he or she reads (Harmer, 2007). Activities such as reading and retelling texts are essential for developing monologic competence. When students prepare oral summaries or written reports based on texts and present them to classmates, they reinforce both their expressive and cognitive skills. Psychologically, monologic speech is closely related to written expression, as both rely on similar mechanisms of thought organization and articulation.The features of monologic speech indicate that teachers must implement targeted activities to cultivate this ability. Students should be trained to express their ideas clearly, freely, and extensively. This requires thoughtful selection of teaching strategies suited to the needs and proficiency levels of specific student groups (Bim, 2007).

Dialogic speech, in contrast, involves communication between two participants. It is the most dynamic and natural form of language use. Dialogic interaction requires learners to mobilize a wide range of vocabulary, apply grammatical rules accurately, and produce clear pronunciation. Unlimited opportunities for questions within a dialogue promote fluency and encourage spontaneous communication. The well-known methodologist H. E. Palmer successfully applied dialogic practice throughout his career (Palmer, cited in Vaysburd, 2001).

Palmer regarded the question–answer technique as the most effective method for automating speech processes (Palmer, cited in Bim, 2007). To make this possible, teachers must select linguistic material carefully and construct questions that maintain proper English word order. A dialogue consists of

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

exchanges that reflect completeness of meaning and interactive communication. Each utterance responds to the partner and builds upon previous ideas. A student engaged in dialogue must react quickly, retrieve relevant vocabulary and grammar rules, and express a meaningful response. This requires not only lexical knowledge but also familiarity with idiomatic expressions, strong memory, and the ability to produce speech spontaneously.

Methodological literature describes the development of dialogic speech in three stages: the first synthetic stage (memorization of a model dialogue), an analytical stage (mastery of linguistic material), and a second synthetic stage (planned conversation) (Vaysburd, 2001).

The primary measure of an English teacher's effectiveness is students' oral performance and their ability to understand spoken language. For this reason, speaking instruction must depend on strong linguistic knowledge. Students' speech should be accurate, coherent, and comprehensible, reflecting a well-developed system of phonetic, lexical, and grammatical competence. When teachers integrate these elements effectively and create opportunities for monologic and dialogic interaction, students become better prepared for international communication and practical use of English.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

## References

1. Bim, I. L. (2007). Modelirovaniye ustnoy rechi v metodicheskikh tselyakh. *Inostrannyye yazyki v shkole*, (3), 99–104.
2. Gez, N. I. (2008). Nekotoryye voprosy teorii uroka inostrannogo yazyka. *Inostrannyye yazyki v shkole*, (1), 146–151.
3. Harmer, J. (2007). *The practice of English language teaching* (4th ed.). Pearson Longman.
4. Salistra, I. D. (1958). *Metodika obucheniya nemetskomu yazyku*. Uchpedgiz.
5. Seyidov, F. Ə. (1967). *Şagirdlərin şifahi nitqinin inkişaf etdirmə yolları*.
6. Sokolov, A. N. (1960). *Vnutrennyaya rech' pri izuchenii inostrannykh yazykov*.
7. Tahirov, A. Q., & Salayeva, Ə. (1978). *Orta məktəbdə ingilis dilinin tədrisi metodikası*.
8. Vaysburd, M. L. (2001). *Ispol'zovaniye uchebno-rechevykh situatsiy pri obuchenii ustnoy rechi na inostrannom yazyke*. Titul.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 74-78
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 74-78
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Hicran Köcərli**
Sumqayıt Dövlət Universiteti
https://orcid.org/0009-0006-2430-4967
hicran.kocerli@sdu.edu.az

# Rəqəmsal transformasiya şəraitində mühasibat uçotunun inkişaf istiqamətləri

***Açar sözlər:*** *rəqəmsal transformasiya, süni intellekt, blok-çeyn texnologiyası, elektron sənəd dövriyyəsi, maliyyə şəffaflığı, kibertəhlükəsizlik, İFRS standartları*

***Keywords:*** *digital transformation, blockchain technology, electronic document circulation, financial transparency, cybersecurity, IFRS standards*

Rəqəmsal transformasiya mühasibat uçotunda ənənəvi yanaşmaların dəyişməsinə səbəb olmuşdur. Ənənəvi uçot sistemlərində məlumatların əl ilə işlənməsi, hesabatların gecikməsi və xətaların çoxluğu müşahidə edilirdisə, rəqəmsal texnologiyaların tətbiqi ilə bu problemlər əhəmiyyətli dərəcədə aradan qaldırılmışdır. Rəqəmsal transformasiya yalnız texnoloji yenilik deyil, həm də idarəetmə fəlsəfəsinin dəyişməsini nəzərdə tutur. Müasir mühasibat uçotu artıq sadəcə maliyyə məlumatlarının toplanması deyil, həm də analitik emal və proqnozlaşdırma funksiyasını daşıyır. Süni intellekt, böyük verilənlər (Big Data), blokçeyn texnologiyası və bulud əsaslı həllər uçot proseslərinin əsas istiqamətlərini dəyişməkdədir. Blokçeyn texnologiyası xüsusilə maliyyə əməliyyatlarında şəffaflığın təmin edilməsinə xidmət edir. Bu texnologiyanın tətbiqi saxtakarlıq risklərini minimuma endirir və məlumatların dəyişdirilməsinin qarşısını alır (Christopher, 2016). Süni intellekt isə hesabatların hazırlanmasında insan əməyinin yükünü azaldır, analitik qərarların

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 74-78
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 74-78
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

qəbulunu sürətləndirir. Müasir dövrdə müəssisələrin uğurlu fəaliyyətinin mühüm şərtlərindən biri çevik mühasibat uçotu sisteminə sahib olmaqdır.

Əlavə olaraq, rəqəmsal transformasiya mühasibat uçotunda beynəlxalq standartların tətbiqini də zəruri etmişdir. Bu, xüsusilə beynəlxalq bazarlarda fəaliyyət göstərən şirkətlər üçün vacibdir. İfrs standartlarının rəqəmsal platformalarda tətbiqi məlumatların müqayisəliliyini və şəffaflığını artırır (Əliyev, 2022). Bu proses, həmçinin, vergi orqanları və digər tənzimləyici qurumlarla qarşılıqlı əlaqəni də asanlaşdırır. Nəticə etibarilə, rəqəmsal transformasiya mühasibat uçotunun nəzəri əsaslarını gücləndirərək onu daha çevik, şəffaf və səmərəli bir sistemə çevirir. Rəqəmsal transformasiya mühasibat uçotu üçün bir sıra yeni imkanlar açmışdır. Ən mühüm imkanlardan biri məlumatların real vaxt rejimində işlənməsi və təqdim olunmasıdır. Əgər ənənəvi uçot sistemində hesabat dövrü sonunda məlumat əldə olunurdusa, rəqəmsal mühitdə bu proses dərhal baş verir. Bu isə idarəetmə qərarlarının operativ qəbulunu təmin edir. Digər mühüm imkan isə bulud texnologiyalarının tətbiqidir. Mühasibat proqramlarının bulud əsaslı olması müəssisələrə xərclərin optimallaşdırılması, məlumatların təhlükəsiz saxlanması və uzaqdan idarəetmə üstünlüyü verir.

Lakin imkanlarla yanaşı bir sıra çağırışlar da mövcuddur. İlk növbədə, kiber təhlükəsizlik məsələləri ön plana çıxır. Rəqəmsal mühitdə məlumatların sızması və kiberhücumlar müəssisələrin fəaliyyətini ciddi risk altına sala bilər. Bundan əlavə, rəqəmsal texnologiyaların tətbiqi üçün müəssisələrdən yüksək maliyyə resursları tələb olunur. Bu isə xüsusilə kiçik və orta biznes üçün çətinlik yaradır. Digər çağırış isə insan kapitalının uyğunlaşdırılması ilə bağlıdır. Mühasiblər yeni texnologiyalardan istifadə bacarıqlarına malik olmalı, rəqəmsal bacarıqlarını artırmalıdırlar (Məmmədova, 2021). Eyni zamanda, rəqəmsal transformasiya

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

şəraitində normativ-hüquqi bazanın uyğunlaşdırılması da vacibdir. Azərbaycanda son illərdə rəqəmsal iqtisadiyyatın inkişafına dair dövlət proqramları həyata keçirilmişdir. Bu çərçivədə mühasibat uçotu ilə bağlı qanunvericiliyin də yenilənməsi diqqət mərkəzindədir. Dövlət Vergi Xidmətinin elektron sistemlərinin tətbiqi, elektron qaimə-fakturaların istifadəsi bu istiqamətdə atılmış mühüm addımlardandır. Bu proseslər göstərir ki, rəqəmsal transformasiya yalnız texniki deyil, həm də institusional dəyişiklikləri tələb edir.

Rəqəmsal transformasiyanın mühasibat uçotuna təsirini qiymətləndirmək üçün statistik göstəricilər mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2022-ci ildə ölkədə fəaliyyət göstərən müəssisələrin 72%-i mühasibat uçotu və maliyyə hesabatlarında elektron proqram təminatından istifadə etmişdir. Bu göstərici 2018-ci ildə 48% təşkil edirdi. Yəni, son 4 ildə rəqəmsal uçot sistemlərinin tətbiqi 24% artmışdır (Dövlət Statistika Komitəsi, 2023). Bundan başqa, elektron qaimə-faktura sisteminə qoşulmuş müəssisələrin sayı 2022-ci ildə 65 min təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 18% çoxdur. Elektron sənəd dövriyyəsinin artması şəffaflığın təmin edilməsi və vergi qaçaqmalçılığının azaldılması baxımından mühüm nəticələr doğurmuşdur. Beynəlxalq təcrübə də rəqəmsal uçotun artımını təsdiqləyir. PwC-nin 2023-cü ildə keçirdiyi sorğuya görə, dünya üzrə müəssisələrin 82%-i mühasibat proseslərində rəqəmsal texnologiyalardan istifadə edir. Bu müəssisələrin 45%-i bulud əsaslı sistemlərdən, 37%-i isə süni intellekt əsaslı analitik alətlərdən yararlanır (PwC, 2023).

Statistik göstəricilərdən aydın olur ki, rəqəmsal transformasiya müəssisələrin fəaliyyətində şəffaflıq və effektivlik yaradır. Xüsusilə, elektron sənəd dövriyyəsinin artması əməliyyatların sürətini və dəqiqliyini artırır. Bununla belə, statistik

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

məlumatlar göstərir ki, bəzi kiçik müəssisələr hələ də ənənəvi uçot sistemlərindən istifadə edir. Bu da resurs çatışmazlığı və texnoloji savadlılığın yetərsizliyi ilə bağlıdır. Nəticə etibarilə, rəqəmsal transformasiya prosesinin daha geniş tətbiqi üçün dövlət dəstəyi, təlim proqramları və stimullaşdırıcı mexanizmlər vacibdir.

Rəqəmsal transformasiya şəraitində mühasibat uçotunun gələcək inkişafı üçün bir sıra əsas istiqamətlər mövcuddur. İlk növbədə, süni intellekt texnologiyalarının daha geniş tətbiqi perspektivləri önə çıxır. Bu texnologiyalar yalnız məlumatların emalı deyil, həm də proqnozlaşdırma və risklərin qiymətləndirilməsi imkanlarını genişləndirəcəkdir (FAO, 2022). Digər mühüm istiqamət blokçeyn texnologiyasının tətbiqinin dərinləşdirilməsidir. Bu, xüsusilə bank-mühasibat əməliyyatlarının şəffaflığını artıracaqdır. Bununla yanaşı, rəqəmsal uçotun beynəlxalq standartlarla tam inteqrasiyası da prioritet olaraq qalır. Azərbaycanda İFRS standartlarının tətbiqinin genişləndirilməsi rəqəmsal transformasiyanın keyfiyyətini yüksəldəcəkdir. Digər istiqamət isə insan kapitalının inkişafı ilə bağlıdır. Mühasiblərin rəqəmsal bacarıqlarının artırılması üçün davamlı təlimlərin təşkili, universitetlərdə yeni fənlərin tədrisi zəruridir (Qasımova, 2023). Gələcəkdə, mühasibat uçotunun inkişafında rəqəmsal etik qaydaların formalaşdırılması da vacibdir. Çünki süni intellekt və avtomatlaşdırılmış sistemlərdən istifadə zamanı etik məsələlər ortaya çıxır. Digər mühüm amil isə rəqəmsal uçotda kibertəhlükəsizlik standartlarının gücləndirilməsidir. Əks halda, texnoloji risklər bütün sistemin etibarlılığına mənfi təsir göstərə bilər.

Ümumiyyətlə, rəqəmsal transformasiya mühasibat uçotunun gələcəyini müəyyən edən əsas amillərdəndir. Bu proses mühasibat uçotunun yalnız texnoloji yenilənməsini deyil, həm də yeni idarəetmə fəlsəfəsini özündə ehtiva edir.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 74-78
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 74-78
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Rəqəmsal transformasiya şəraitində mühasibat uçotunun inkişaf istiqamətləri çoxşaxəlidir. Müasir texnologiyalar uçotun dəqiqliyini, şəffaflığını və səmərəliliyini artırır. Statistik göstəricilər də bu prosesin uğurlu nəticələrini təsdiqləyir. Bununla belə, rəqəmsal transformasiya həm imkanlar, həm də çağırışlar doğurur. Xüsusilə kibertəhlükəsizlik, insan kapitalının uyğunlaşdırılması və hüquqi bazanın yenilənməsi mühüm məsələlərdir. Azərbaycan üçün rəqəmsal mühasibat uçotunun inkişafı strateji əhəmiyyət kəsb edir və gələcəkdə davamlı iqtisadi inkişafın təmin edilməsinə mühüm töhfə verəcəkdir.

## Ədəbiyyat

1. Christopher, M. (2016). *Logistics and supply chain management*. Pearson Education Limited.
2. FAO. (2022). *The state of food security and nutrition in the world 2022*. Food and Agriculture Organization of the United Nations.
3. Əliyev, V. M. (2022). *Aqrar sahədə logistika və təchizat zənciri idarəetməsinin inkişaf istiqamətləri*. Elm və Təhsil.
4. Məmmədova, Ş. R. (2021). *Qida təhlükəsizliyi və kənd təsərrüfatı siyasətinin iqtisadi əsasları*. SDU Nəşriyyatı.
5. Qasımova, Z. R. (2023). *Dayanıqlı inkişaf kontekstində kənd təsərrüfatında idarəetmə problemləri*. İqtisad Universiteti Nəşri.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 79-84
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 79-84
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Əminə Məmmədova**
Bakı Biznes Universiteti
https://orcid.org/0000-0003-0200-098X
memmedovae59@gmail.com

# Qazilərin problemlərinin həllində sosial işin rolu

***Açar sözlər:*** *qazi, müharibə, hərbidə sosial iş, qazilərə sosial yardım, sosial inteqrasiya*
***Keywords:*** *veteran, war, social work in the military, social assistance to veterans, social integration*

Azərbaycanda da müharibələr və terror hadisələri qazilərin sayının artmasına səbəb olmuşdur. "Qazi" sözü ərəb mənşəlidir, döyüşən, vuruşan, düşmənlə döyüşə qatılan və ölmədən vətənə qayıdan insan mənasında işlədilir (Sakarya, Büyükbodur & Tunaç, 2021, p. 28).

"Veteranlar haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən, müharibə veteranları İkinci Dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərdir (Veteranlar haqqında AR Qanunu, 1994). Azərbaycanda rəsmən "müharibə veteranı" və "müharibə zamanı əlillik qazanmış şəxs" ifadəsi var. Qazi dedikdə müharibədə iştirak edən və müharibə zamanı

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

əlillik qazanmış şəxslərə deyilir. “Veteran” sözü qazilik məsələsini tam ifadə edə bilmədiyi üçün ya qanunun adının dəyişdirilərək “qazilər haqqında” qanun edilməsinə, ya da ayrıca qazi statusu haqqında qanunun qəbul olunmasına ehtiyac var.

Şəxsin, ailənin, qrupun və cəmiyyətin ümumi rifah səviyyəsini və sosial funksionallığını yüksəltməyə çalışan sosial işçilər sosial ədalət və insan hüquqlarını prinsip kimi götürərək cəmiyyətin hər bir fərdinə dəstək verməklə məhkəmə, tibbi və psixiatriya kimi müxtəlif sahələrdə ixtisaslaşırlar. Qazilər müharibədən sonra psixoloji və sosial problemlər yaşayırlar. Qazilər üçün digər problem yaralanmadan sonra həyat yoldaşı və ya valideyn kimi rollara qayıtmağın çətinləşməsidir, çünki dözümlülüyün azalması münasibətlərə təsir göstərir (Başcıllar & Karataş, 2021). Araşdırmalar göstərir ki, qazilərin mülki həyata adaptasiya prosesi zamanı onların PTSP və depressiya ilə mübarizə aparması valideynlik rollarına da təsir göstərmişdir. Xüsusilə də uşaqların valideyndən daha az qayğı görməsi onların inkişafına mane olur (Peker & Özbesler, 2021).

PTSP diaqnozu qoyulan hərbçilərin müharibədən əvvəlki vəzifələrini yerinə yetirməkdə, həmçinin mərhəmət göstərmək və münasibətlərdə dəstək olmaq bacarıqları azalır. Bu səbəbdən hərbçi həyat yoldaşları demək olar ki, bütün vəzifələri öz üzərinə götürürlər, çünki hərbçilər uşaqların psixoloji ehtiyaclarını qarşılamaqda və maddi dəstək verməkdə yetərli olmaya bilərlər. Hərbçilərin həyat yoldaşlarının PTSP səbəbi ilə psixiatrik əlamətlərinin artdığı, sosial münasibətlərinin də pisləşdiyi görülmüşdür. Bir araşdırmada PTSP simptomları olan qazilərin həyat yoldaşlarının 70%-də, PTSP olmayan cütlüklərin isə 30%-ində münasibət problemi olduğu və PTSP olan hərbçilərin həyat yoldaşlarının ayrılma və boşanma

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

istiqamətində daha çox addım atdıqları müəyyən edilmişdir (Başcıllar & Karataş, 2021).

Reabilitasiya prosesindən sonra evə dönən qazilərin gözləntilərinin qarşılanmaması və yaşadıqları itkilər mülki həyata adaptasiyada da çətinlik yarada bilər. Bu problemlərə sosial münasibətlərdə etibarsızlıq, ailə problemləri, boşanma, qəzəb və aqressiya, ünsiyyət problemləri, işsizlik və iqtisadi çətinliklər, damğalanma və digər insanlardan uzaqlaşma daxildir (Peker & Özbesler, 2021). Yaşanan fiziki itkilər, fəaliyyət məhdudiyyətləri, asudə vaxt axtarışları və sosial qarşılıqlı əlaqə onların işdə və gündəlik həyatda funksiyalarını məhdudlaşdıra bilər. Bu, yaralanmanın növü və dərəcəsindən də asılıdır. Bundan əlavə, bu problemlər qazilərin rifahına və həyat keyfiyyətinə mənfi təsir göstərir. Əlilliyi olan hərbçilərin həyata uyğunlaşması və qəbulu ümumi əhali ilə müqayisədə daha çətindir (Şahin & Sakarya, 2018, p. 85).

Müharibə təcrübəsi və uyğunlaşma məsələləri ilə konstruktiv şəkildə mübarizə aparan qazilərin ailəsi, həyat yoldaşları və həmyaşıdları ilə sıx əlaqələr qurmaq, könüllü ictimai fəaliyyətlə məşğul olmaq və peşəkar psixoloji dəstək almaq kimi cəmiyyətə uyğunlaşmanı gücləndirən fəaliyyətlər məqsədi ilə müxtəlif birliklər yaradılmışdır. Bu qeyri-hökumət təşkilatları qazilərə xidmətlər göstərir, hüquqlarını müdafiə edir, müharibə təcrübələrini və bu prosesdə qarşılaşdıqları çətinlikləri bir-birləri ilə bölüşürlər, həmçinin reinteqrasiya üçün dəstək verirlər (Özdemir, 2019, p. 14).

Qazilərlə işləməkdə sosial işin məqsədi ilk növbədə müharibə kimi fövqəladə vəziyyətdən təsirlənən insanların güclənməsinə, ailəsinə, ətrafına və cəmiyyətə kömək etmək və inteqrasiyasını təmin etməkdir (Şahin & Sakarya, 2018). Bu sahədə veteranlarla işləyən sosial işçilər müalicə mərhələsində və izləmə zamanı fəaliyyət göstərir və bu prosesdə sosial işçilər

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

öz rollarını və funksiyalarını inkişaf etdirirlər. Sosial işçilərin rol və funksiyaları arasında qiymətləndirmə, böhran və keysə müdaxilə, müvəkkillik və maarifləndirmə vardır. Vəkillik rolu zamanı qazilərin hüquqlarını müdafiə etməkdə əsas məqsəd qazinin rifahını yaxşılaşdırmaq və əlavə olaraq onun funksionallığını artırmaq və cəmiyyətə inteqrasiyasını təmin etməkdir (Sakarya, Büyükbodur & Tunaç, 2018, p. 266).

Sosial işçinin maarifləndirmə rolu isə müraciətçinin hüquq və vəzifələri, ediləcək müraciət, qurumların fəaliyyəti, institutlararası əlaqələr və prosedurlar haqqında məlumatlandırmanı təmin etmək məqsədi daşıyır. Təklif olunan xidmətlər zamanı sosial işçilər qeyri-hökumət təşkilatlarının funksiyaları, strukturu və qanunvericilik aktları haqqında biliyə malik olmalıdırlar. Sosial iş mütəxəssisləri tərəfindən həyata keçirilən işin idarə edilməsi icma reinteqrasiyasında qazilərə qayğı və xidmətlərin göstərilməsinin əsas komponentidir (Peker & Özbesler, 2021).

Müalicə prosesi zamanı ailə üzvləri qaziyə qayğı göstərmək üçün işdən ayrılmaq məcburiyyətində qala bilərlər. Sosial işçilər qazilərin həyat yoldaşlarına bu çətin qərarlarda kömək üçün təşkilatlar tərəfindən təmin edilən resurslara çıxışı dəstəkləyə bilər. Sosial işçilərin əsas məqsədi ağır müharibə şəraitində yaralanan qazilərə posttravmatik stress pozuntusu, maddə asılılığı, zorakılıq və özünə zərər riski kimi sosial disfunksiya pozuntularını aradan qaldırmaq və şəxsin mülki həyata, ailəyə və cəmiyyətə uyğunlaşmasını təmin etməkdir (Sakarya, Büyükbodur & Tunaç, 2018, p. 284).

Bütün reabilitasiya səylərinin məqsədi qazi və ailəsinin həyat keyfiyyətini maksimuma çatdırmaqdır. Bu məqsədlə qazinin əsas ehtiyaclarını vurğulayan həll yönümlü yanaşmadan istifadə edilir. Yaralanmadan sonra reabilitasiya prosesinin uğuru üçün qaziyə onun aktiv rolu olduğu və nəzarəti

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

saxlamaqda məsuliyyət daşıması barədə məlumat verilməlidir (Özdemir, 2021).

Sosial işçi qazi və ailəsinin yaşadığı çətin prosesin öhdəsindən gəlmək bacarığını inkişaf etdirməkdə mühüm rol oynayır. Məsələn, bu istiqamətdə həyata keçirilən sosial iş müdaxiləsində qazinin ailədə yaşadığı rol itkisi aradan qaldırıla, həm qaziyə, həm də ailəyə yeni vəziyyətə uyğunlaşmada dəstək verilə bilər. Qazilər bəzən həyat yoldaşları və ailə üzvləri ilə ünsiyyət və münasibətlərdə problemlər yaşayırlar (Sakarya, Büyükbodur & Tunaç, 2018, p. 290). Ailə əsaslı müdaxilələr qazilər və onların ailələrində ailə davamlılığında müsbət dəyişiklik yaratmaq ehtimalını artıra bilər, eyni zamanda posttravmatik sindromun mənfi təsirlərini azalda bilər (Peker & Özbesler, 2021).

Qazilərin müalicədən evə qayıtdıqdan sonrakı təcrübələri hərbi sosial işin diqqət mərkəzindədir. Qazilərin sosial inteqrasiyasını təmin etmək üçün hazırlanacaq sosial siyasətlər makro səviyyədə əhəmiyyət kəsb edir (Şahin & Sakarya, 2018). Sosial siyasət sahəsində atıla biləcək addımlar cəmiyyətdə qazilərə qarşı dəyəri və münasibəti yaxşılaşdırmaq, fərqindəliyi artırmaq, qazilərin maarifləndirilməsinə və ictimai inteqrasiyasına töhfə verə biləcək qeyri-hökumət təşkilatlarının təşəbbüslərini dəstəkləməkdən ibarətdir. Bundan əlavə, sosial yardım, təhsil və müalicə, psixososial dəstək xidmətləri və məşğulluq imkanları ilə bağlı qanunvericilik sahəsində araşdırmalar makro səviyyədə sosial işin əsasını təşkil edir (Peker & Özbesler, 2021).

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

## Ədəbiyyat

1. Başcıllar, M., & Karataş, K. (2021). Orduda sosial xidmət: Terror qazilərinin depressiya və yaşam doyumunun qiymətləndirilməsi. *Journal of Society & Social Work*, 23–40.
2. Peker, F., & Özbesler, C. (2021). Qazilər və orduda sosial xidmət tətbiqləri. *Tibbi Sosial Xidmət Dərgisi*, (18), 142–156.
3. Sakarya, H., Büyükbodur, A. Ç., & Tunaç, Ç. A. (2021). *Askeri sosyal hizmet* (1-ci nəşr). Ankara: Nika Yayınevi.
4. Şahin, F., & Sakarya, H. (2018). Silahlı qüvvələrdə sosial xidmətin tarixi, inkişafı və funksiyaları. *Trakya Universiteti Sosial Elmlər Dərgisi*, 20(1), 81–98.
5. Veteranlar haqqında Azərbaycan Respublikasının Qanunu. (1994). https://e-qanun.az/framework/8964
6. Özdemir, E. M. (2019). *Askeri sosyal hizmet* (1-ci nəşr). Ankara: Özdemir Yayınevi, 12–16.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 85-87
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 85-87
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Kifayat Mansimova**
Azerbaijan University of Languages
https://orcid.org/0009-0009-6444-9716
kifayetmnv@gmail.com

# Inclusive Education in Azerbaijan: Problems and Prospects

***Keywords:*** *inclusion, education, upbringing, pedagogy, analysis*
***Açar sözlər:*** *inklüzivlik, təhsil, tərbiyə, pedaqogika, təhlil*

The key documents regulating inclusive education in Azerbaijan are the "Law on Education and the Presidential Decree of December 14, 2017, "The State Program for the Development of Inclusive Education for Persons with Disabilities for 2018–2024" (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2017). These documents define policy directions, the responsibilities of education authorities, and the mechanisms for implementing inclusive practices. International partners (UNICEF, UNESCO, and the World Bank) provide technical and financial support for the reforms, participating in staff training and monitoring. "Azerbaijan can take a number of steps to further improve inclusive education as part of its ongoing efforts. To ensure the integration of children with disabilities into society, it is necessary to ensure collaboration between teachers and parents, primarily through educational sessions with parents" (Zakieva, Gulieva, 2024, p. 62).

**Implementation Stages and Practical Measures**

1. Piloting and Methodological Development.
2. Staff Training. One of the priority areas is improving the qualifications of teachers and training specialists to support

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

inclusion. UNICEF reports document training for thousands of teachers and the implementation of courses at pedagogical universities.

**3. Infrastructure Adaptation.** Building modernization, equipping classrooms, and creating a barrier-free environment are being implemented in pilot schools; however, coverage is still incomplete and requires additional investment.

**Achievements**

- The development of a legislative framework and a state program have made inclusion an official state policy.

- Pilot projects have demonstrated the feasibility of educating children with special educational needs in mainstream schools with the support of specialists. - International cooperation (UNICEF, UNESCO, World Bank) provided funding and training, accelerating the spread of inclusion practices.

**Key Challenges and Limitations**

1. Lack of qualified personnel.
2. Uneven infrastructure readiness.
3. Social and cultural barriers.
4. Insufficient monitoring and evaluation of the quality of inclusive education.

Inclusive education in Azerbaijan has reached an important stage of institutional development: laws and a state program have been adopted, pilot projects have been implemented, and staff training has begun. At the same time, successful and sustainable expansion of inclusion requires targeted investments in specialist training, infrastructure, cross-sector collaboration, and a change in societal attitudes. Coordinated efforts by the government, the teaching community, and international partners will ensure equal educational opportunities for all children in Azerbaijan.

## References

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2017, 14 dekabr). *“2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam* (№ 3498). https://e-qanun.az/framework/37269
2. Zakieva, S., & Gulieva, A. (2024). Razvitie inklyuzivnogo obrazovaniya v Azerbajdzhane. *Sciences of Europe*, (151), 59–63.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 88-90
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 88-90
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Tənzilə Qasımova**
ADPU-nun nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
https://orcid.org/0000-0002-6210-7140
qasimovatanzila@gmail.com

# Ailə daxili mühitin nitq inkişafına təsiri

***Açar sözlər:*** *nitq inkişafı, ailə mühiti, uşaqlar, sosial amillər, valideyn dəstəyi*
***Keywords:*** *speech development, family environment, children, social factors, parental support*

Bu məqalədə ailə daxili mühitin uşaqların nitq inkişafına təsiri araşdırılır. Nitq inkişafının uşağın sosial, emosional və kognitiv inkişafı ilə sıx bağlı olduğu vurğulanır. Məqalədə valideynlərin intelektual səviyyəsi, ailədəki münaqişələr, çoxdillilik, uşaqlara diqqət və nəzarət səviyyəsi, həmçinin ailənin maddi vəziyyəti kimi sosial amillərin uşaqların nitq inkişafına mənfi təsirləri müzakirə olunur. Məqalədə həmçinin bu mənfi təsirlərin qarşısının alınması üçün praktik tövsiyələr təqdim olunur, valideynlərin maarifləndirilməsi, münaqişələrin azaldılması və dəstək mexanizmlərinin yaradılması önə çıxarılır. Araşdırma göstərir ki, sevgi dolu, dəstəkləyici və nitq stimullaşdırıcı ailə mühiti uşaqların nitq bacarıqlarının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Dövrümüzdə uşaqlarda nitqinin yaşına uyğun inkişaf etməməsi halları tez-tez müşahidə olunur. Bu vəziyyət uşağın özünü ifadə etməsinə, sosial münasibətlər qurmasına və akademik uğurlarına mənfi təsir göstərir. Nitq inkişafı eyni zamanda uşağın sosial, emosional və kognitiv inkişafı ilə sıx bağlıdır.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 88-90
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 88-90
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Uşaqların nitq inkişafı dedikdə onların dil və nitq bacarıqlarının formalaşması və irəliləməsi prosesi nəzərdə tutulur ki, bu, uşağın fikirlərini, hisslərini və məlumatlarını sözlə ifadə etmə bacarığını əhatə edir. Nitq inkişafına mənfi təsir edən amillər sosial və bioloji olaraq qruplaşdırılır. Bu məqalədə diqqət sosial amillərdən hesab olunan ailə daxili mühitin uşaqların nitq inkişafına təsirinə yönəldilmişdir.

**Ailə daxili mühit bir neçə səbəbdən uşaqların nitq inkişafına mənfi təsir edə bilər:**

1. *Ailə daxilində münaqişələr və zorakılıq:* Ailə daxilində münaqişələr uşaqlarda gərginlik, qorxu və təlaş yaradır. Bu, onların özünü ifadə etməsində çətinliklərə və nitq inkişafının ləngiməsinə səbəb olur. Münaqişələr zamanı valideynlər bir-biri ilə mübahisə etdikdə uşaqların onlarla qarşılıqlı əlaqələri azalır və sosial münasibətlər zəifləyir. Bu vəziyyət uşaqların nitq bacarıqlarının inkişafını ləngidir. Münaqişələrin idarə olunması, uşaqların ehtiyaclarına diqqət və onlarla ünsiyyət bu təsirin azaldılmasında vacib rol oynayır.

2. *Çoxdillilik:* Ailədə bir neçə dildən istifadə olunması uşaqlarda nitq inkişafının gecikməsinə səbəb ola bilər. Uşaqlar müxtəlif dillərdəki sözləri qarışdıraraq istifadə edir, bu isə özünü ifadə etmə qabiliyyətini çətinləşdirir. Çoxdilli mühitdə uşağın ilk növbədə ana dilində nitq açması üçün uyğun şərait yaradılmalıdır. Bu, həm nitq, həm də idraki inkişaf üçün əsas şərtdir.

3. *Valideynlərin intelektual səviyyəsi:* Valideynlərin intelektual səviyyəsi uşağın nitq inkişafına təsir edən vacib amillərdəndir. Aşağı səviyyəli intelektual resurslar valideynləri nitq inkişafı ilə bağlı məlumat və dəstək təqdim etməkdə məhrum edir. Bu, uşaqların nitq bacarıqlarının formalaşmasını çətinləşdirir.

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

4. *Uşaqlara diqqət və nəzarət:* Ailədə uşaqlara diqqət və nəzarətin az olması smart cihazlara həddindən artıq bağlılığa gətirib çıxara bilər. Bu, real nitq interaksiyalarını azaldır və uşaqların danışma və dinləmə bacarıqlarını ləngidir. Smart cihazlardan istifadə müddətini məhdudlaşdırmaq və uşaqları aktiv nitq mühitinə cəlb etmək vacibdir.

5. *Ailənin maddi vəziyyəti:* Ailənin maddi imkanı aşağı olduqda uşaqlar kitab, oyun və digər inkişaf resurslarından məhrum olurlar. Valideynlərin stressli vəziyyətləri uşaqlara diqqət yetirməyi çətinləşdirir, bu da uşaqların nitq inkişafına mənfi təsir göstərir. Maddi dəstəyin təmin edilməsi və uşaqlara müsbət mühit yaradılması vacibdir.

Beləliklə, uşaqlarda sağlam nitq inkişafının formalaşmasında ailə daxili mühitin nə qədər əhəmiyyətli olduğu aydın oldu. Uşaqlarda nitq inkişafını  dəstəkləmək üçün ailədə sevgi dolu və nitq stimullaşdırıcı mühitin yaradılması əsasdır. Bunun üçün valideynlərin maarifləndirilməsi, seminarın təşkil olunması və məlumatlandırıcı materialların təqdim olunması, ailə içi münaqişələrin azaldılması və valideynlər üçün dəstək qruplarının yaradılması,uşaqların nitq bacarıqlarını inkişaf etdirəcək fəaliyyətlərə cəlb olunması üzrə işlər aparılmalıdır. Bu strategiyaların həyata keçirilməsi uşaqların nitq inkişafını dəstəkləyən sağlam və stimullaşdırıcı mühitin yaradılmasına kömək edir.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 91-94
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 91-94
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Əsmər İbrahimli**
Azərbaycan Dövlət İqtisad Universiteti
Zaqatala filialı
https://orcid.org/0009-0002-6725-3320
ibrahimli.asmar@unec.edu.az

# Yaşıl enerji keçidi və əmək bazarı: Azərbaycan iqtisadiyyatı üçün yeni fürsətlər

***Açar sözlər***: *yaşıl enerji, əmək bazarı, yaşıl iqtisadiyyat, dayanıqlı inkişaf*
***Keywords:*** *green energy, labour market, green economy, sustainable development*

Son illərdə ekoloji tarazlığın qorunması və davamlı inkişaf məsələləri aktualdır. İqlim dəyişikliyi və ətraf mühit problemlərinin qarşısını almaq üçün ölkələr yaşıl enerji istiqamətinə xüsusi diqqət ayırır. Azərbaycanda da bu proses sürətlə gedir – karbon emissiyalarını azaltmaq, enerji sistemini inkişaf etdirmək və yeni iş imkanları yaratmaq məqsədilə addımlar atılır (Azərbaycan Energetika Nazirliyi, 2022). Bu tədqiqatda məqsədimiz yaşıl enerji keçidinin əmək bazarına təsirini, yaranan yeni peşə sahələrini və bunun iqtisadiyyata gətirə biləcəyi imkanları dəyərləndirməkdir.

Bu tədqiqatda əsas yanaşma müqayisəli təhlilə əsaslanır. Araşdırmada ilk növbədə beynəlxalq təcrübələr – məsələn, Avropa İttifaqı, ILO kimi qurumların hesabatları nəzərdən keçirilib və bunlar Azərbaycanın mövcud reallığı ilə qarşılaşdırılıb. Bundan başqa, ölkədaxili statistika, rəsmi dövlət proqramları və mövzu ilə bağlı ekspert fikirləri də diqqətlə araşdırılıb. Əldə olunan məlumatlar həm beynəlxalq, həm də

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 91-94
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 91-94
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

yerli kontekstdə təhlil olunaraq əmək bazarında yaşıl enerji keçidinin təsirləri qiymətləndirilib.

**Yaşıl enerji keçidinin qlobal baxışı**

Dünya ölkələrinin təcrübəsi göstərir ki, yaşıl enerji keçidi təkcə ətraf mühitin qorunması üçün deyil, həm də yeni iş yerlərinin açılması baxımından əhəmiyyətlidir (International Labour Organization, 2022). Məsələn, Avropa İttifaqı 2050-ci ilə qədər karbon neytrallığına nail olmağı qarşısına məqsəd qoyub və bunun üçün yaşıl peşələrin sayının artırılmasına xüsusi diqqət yetirir (European Commission, 2023). Skandinaviya ölkələri, Çin və Danimarka kimi dövlətlərdə bu istiqamət üzrə kifayət qədər uğurlu nəticələr var (World Economic Forum, 2022). Beynəlxalq Əmək Təşkilatının (ILO) hesablamalarına görə, yaşıl iqtisadiyyatın inkişafı dünyada milyonlarla yeni iş yerinin yaranmasına şərait yarada bilər ki, bu da gələcəkdə məşğulluğun daha dayanıqlı olmasına imkan verəcək.

Azərbaycan da yaşıl enerji sahəsində potensialını artırmaq üçün son illərdə mühüm addımlar atır. 2030-cu ilə qədər ölkənin enerji istehsalında bərpa olunan mənbələrin payını 30 faizə çatdırmaq hədəflənib. Xüsusilə, Xəzər dənizi sahəsində külək enerjisi layihələri, günəş elektrik stansiyalarının genişləndirilməsi və regionlarda alternativ enerji mənbələrinin qurulması məşğulluğu artırır (AEN, 2022). Bu da yerli əhali üçün əlavə iş yerləri deməkdir.

Yaşıl enerji keçidi əmək bazarında həm yeni ixtisas sahələrinin yaranmasına, həm də mövcud peşələrin məzmununun dəyişməsinə səbəb olur (ILO, 2022). Məsələn, alternativ enerji sistemlərinin quraşdırılması və texniki xidməti, ekoloji monitorinq kimi sahələrdə ixtisaslı kadrlara ehtiyac artır. Bu isə təhsil müəssisələrinin tədris proqramlarının yenilənməsini zəruri edir. Azərbaycanda da əmək bazarının ehtiyacları daha dəqiq

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 91-94
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 91-94
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

müəyyənləşdirilməli və gənclər bu istiqamətdə peşə və ali təhsilə yönləndirilməlidir.

Araşdırma göstərir ki, yaşıl enerji keçidi Azərbaycanda təkcə ətraf mühitin mühafizəsi üçün deyil, həm də məşğulluğun artırılması baxımından böyük potensiala malikdir. Yeni iş yerlərinin açılması, regionlarda əhalinin işlə təmin olunması bu prosesin əsas üstünlüklərindəndir. Beynəlxalq təcrübə sübut edir ki, yaşıl transformasiya düzgün planlaşdırılıb həyata keçirildikdə uzunmüddətli sosial-iqtisadi faydalar yaradır (WEF, 2022).

Azərbaycanın yaşıl enerji keçidindən maksimum fayda götürməsi üçün bir sıra addımlar atılmalıdır. İlk növbədə, əmək bazarının real tələblərinə uyğun milli bacarıq xəritəsi hazırlanmalı, hansı peşələrə daha çox ehtiyac olduğu aydın müəyyənləşdirilməlidir. Peşə və ali təhsil müəssisələri bu tələblərə uyğun proqramlar təklif etməlidir ki, gənclər bu sahəyə maraq göstərsinlər və müasir biliklərə yiyələnsinlər. Bundan əlavə, yaşıl enerji layihələrinə sərmayə yatıran sahibkarlar üçün vergi və maliyyə güzəştləri tətbiq etmək faydalı ola bilər. Normativ-hüquqi baza daha da təkmilləşdirilməli, yaşıl məşğulluqla bağlı layihələr hazırlanmalıdır. Xüsusilə, regionlarda alternativ enerji layihələrinə üstünlük verilməli, yerli əhalinin məşğulluğu və sosial rifahı diqqətdə saxlanılmalıdır. Bütün bu addımlar ölkənin dayanıqlı inkişafını təmin etməklə yanaşı, əmək bazarında yeni fürsətlər yaradacaq.

## Ədəbiyyat

1. Azərbaycan Energetika Nazirliyi. (2022). *Azərbaycanın enerji keçidi strategiyası 2030*. Energetika Nazirliyi.
2. European Commission. (2023). *European Green Deal*. https://ec.europa.eu
3. International Labour Organization. (2022). *World employment and social outlook 2022: Greening with jobs*. ILO.
4. World Economic Forum. (2022). *Future of jobs report 2022*. World Economic Forum.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 95-97
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 95-97
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Aytən İbrahimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0000-6123-2399
ayten.cavadova17@gmail.com

# Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında sintaktik paralelizmlərin funksiyası

***Açar sözlər:*** *Nizami Gəncəvi, Leyli və Məcnun, sintaksis, paralelizm, poetik dil, ritm*
***Keywords:*** *Nizami Ganjavi, Layla and Majnun, syntax, parallelism, poetic style, rhythm*

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında bədii dilin poetik gücünü artıran əsas vasitələrdən biri sintaktik paralelizmdir. Paralel quruluşlar həm ritm yaradır, həm də emosional-psixoloji təsiri gücləndirir. Bu tədqiqatın məqsədi poemadakı sintaktik paralelizmlərin funksiyalarını müəyyənləşdirmək, onların poetik sistemdə tutduğu yeri göstərməkdir.

Sintaktik paralelizm -eyni və ya oxşar sintaktik modellərin yan-yana və ya ardıcıl şəkildə işlənməsi klassik Şərq poeziyasında geniş yayılmış bir prinsipdir. Nizami bu üsulu fikrin simmetrik qurulması və ideyanın vurğulanması üçün istifadə edir (Əlizadə, 2010, p. 44).

Burada cümlələr eyni sintaktik qəlib üzrə qurulur. Məsələn, Nizami qəhrəmanların psixoloji halını təsvir edərkən ardıcıl eyni quruluşlu cümlələrdən istifadə edir:

"Ağladı Leyli…
Ağladı könüllər…
Ağladı səhralar…"

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Burada ardıcıl "Ağladı + isim" modeli işlənir və emosional yüksəliş yaradır (Əliyev, 2012, p. 118).

**Bu formanın funksiyası:**

• psixoloji halın tədricən güclənməsini göstərmək,
• hadisəyə kollektiv reaksiya təsiri yaratmaq.

Oxşar məna daşıyan, lakin fərqli söz və ifadələrlə qurulan cümlələr Nizaminin üslubunun əsas xüsusiyyətlərindəndir:

"Göz yaşı axdı könüldən,
Qan damdı qəlbin içindən."

Burada "göz yaşı axdı" və "qan damdı" ifadələri semantik paraleldir. Hər iki cümlə kədərin gücünü artırır (Əliyev, 2012, p. 126).

Ziddiyyət üzərində qurulan paralelizm kontrastı gücləndirir:

"Məcnun yandı eşqdən,
Leyli dondu kədərdən."

Burada iki zidd hal paralel şəkildə verilir. Bu, Nizaminin dramatik təsir yaratmaq üsullarındandır (Əlizadə, 2010, p. 53).

Nizami paralel strukturlar vasitəsilə mətni ahəngləndirir. Paralelizm qafiyə ilə birlikdə ritmik axın yaradır və poemanın musiqiliyini artırır (Rüstəmov, 2016, p. 77).

Paralel cümlələr duyğunun güclü şəkildə təkrarlanmasına və oxucuda psixoloji təsir yaratmasına xidmət edir. Məsələn: "Yandı könlüm,

Yandı sözüm,
Yandı gecəm…"

Burada emosional yüksəliş ardıcıllığı paralel quruluşla təmin edilir.

Nizami bir fikri daha təsirli etmək üçün sintaktik paralelizmə müraciət edir. Paralel cümlələr fikrə çoxqatlılıq verir və ideyanın mərkəzə çəkilməsini təmin edir.

Məcnunun daxili aləmi çox vaxt ardıcıl paralel strukturlarla açılır. Bu, qəhrəmanın qərarsızlığını və ya emosional yüksəlişini oxucuya daha aydın şəkildə çatdırır (Rüstəmov, 2016, p. 82).

Poemanın bəzi hissələri xüsusilə paralelizmlə başlanır və ya tamamlanır. Bu, hissələr arasında keçidi yüngülləşdirir və kompozisiyanın harmoniyasını qoruyur.

Tədqiqat göstərir ki, sintaktik paralelizm Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasında yalnız bədii priyom deyil, həm də kompozisiya və ideya daşıyıcısı kimi çıxış edir. Paralel quruluşlar ritmi gücləndirir, emosional təsiri artırır, obrazların psixoloji dünyasını açır və mətnin poetik strukturunda simmetriya yaradır. Bu xüsusiyyətlər Nizaminin poetik dil sistemində paralelizmi əsas üslubi vasitələrdən birinə çevirir.

## Ədəbiyyat

1. Əlizadə, A. (2010). *Nizami Gəncəvi poetikasında sintaksis məsələləri*. Elm.
2. Əliyev, N. (2012). *Klassik Şərq poeziyasında paralelizm*. Şərq-Qərb.
3. Rüstəmov, M. (2016). *"Leyli və Məcnun"un dil-üslub xüsusiyyətləri*. ADPU Nəşriyyatı.

**Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 98-101**
**Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 98-101**
**https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025**

**İxtiyar Ağazadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0000-8136-9472
i.agazada@yahoo.com

# Mənfəət və zərərlər hesabatının təkmilləşdirməsi üsulları

***Açar sözlər:*** *mənfəət, zərər, hesabat, təkmilləşdirmə, maliyyə idarəetməsi, şəffaflıq, beynəlxalq standartlar*
***Keywords:*** *profit, loss, report, improvement, financial management, transparency, international standards*

Mənfəət və zərərlər hesabatı müəssisələrin maliyyə nəticələrinin obyektiv qiymətləndirilməsini təmin edən əsas maliyyə sənədidir. Bu hesabat gəlirlər və xərclər arasındakı fərqi göstərməklə müəssisənin dövr ərzində əldə etdiyi iqtisadi nəticəni əks etdirir. Hesabatın dəqiq və şəffaf olması müəssisənin idarəetmə prosesində strateji qərarların qəbulunu asanlaşdırır, maliyyə dayanıqlığını müəyyənləşdirir və resursların səmərəli istifadəsini təmin edir (Azərbaycan Respublikası, 2020).

Mənfəət və zərərlər hesabatının təkmilləşdirilməsi üçün bir sıra üsullar mövcuddur. İlk növbədə, gəlir və xərclərin sistemli və düzgün qeydiyyatı təmin edilməlidir. Bunun üçün müəssisələr mühasibat uçotunun standart qaydalarına riayət etməli, bütün əməliyyatları operativ şəkildə uçota almalıdır. Gəlir və xərclərin kateqoriyalara ayrılması, onların düzgün təsnifatı hesabatın dəqiqliyini artırır və analitik təhlillərin aparılmasını asanlaşdırır (Drury, 2020).

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

İkincisi, hesabatın beynəlxalq mühasibat standartlarına (IFRS və ya GAAP) uyğunlaşdırılması çox mühümdür. Bu yanaşma hesabatın qlobal maliyyə bazarlarında etibarlılığını artırır, investorların və kredit təşkilatlarının etimadını təmin edir və maliyyə şəffaflığını gücləndirir. Üçüncüsü, rəqəmsal texnologiyaların tətbiqi hesabatın hazırlanmasını sürətləndirir və insan amilindən yaranan səhvləri minimuma endirir. Müasir mühasibat proqramları, ERP sistemləri və maliyyə analitik alətləri məlumatların operativ toplanmasını, işlənməsini və təhlilini asanlaşdırır (Garrison, Noreen, Brewer, 2022).

Dördüncüsü, daxili nəzarət və audit mexanizmlərinin gücləndirilməsi hesabatın etibarlılığını artırır. Düzgün planlaşdırılmış daxili nəzarət sistemi xərclərin optimallaşdırılmasına, maliyyə risklərinin vaxtında aşkarlanmasına və səmərəli idarəetməyə imkan yaradır. Hesabatın davamlı təhlili müəssisəyə investisiya qərarlarını əsaslandırmaq, əməliyyat xərclərini azaltmaq və bazar mövqeyini gücləndirmək üçün strateji məlumatlar təqdim edir (Horngren, Sundem, Elliott, 2022).

Bundan əlavə, hesabatın vizual və analitik formatda təqdim olunması da onun faydalılığını artırır. Qrafiklər, cədvəllər və göstəricilərin vizual təsviri rəhbərliyə maliyyə vəziyyətini daha aydın görməyə və qərar qəbul etməyə kömək edir. Təkmilləşdirilmiş hesabat sistemi yalnız maliyyə nəticələrini göstərmir, həm də müəssisənin gələcək planlaşdırması üçün əsas baza yaradır və strateji idarəetmənin effektivliyini yüksəldir (IFRS Foundation, 2023).

Nəticədə, mənfəət və zərərlər hesabatının təkmilləşdirilməsi üsullarının tətbiqi müəssisələrə maliyyə şəffaflığını təmin etmək, riskləri vaxtında aşkarlamaq, resurslardan səmərəli istifadə etmək və rəqabət üstünlüyü əldə etmək imkanı verir. Bu proses müasir biznesdə strateji qərarların əsasını təşkil edir və

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

müəssisənin uzunmüddətli iqtisadi dayanıqlığını təmin edir (Kaplan, Norton, 2021).

Mənfəət və zərərlər hesabatının təkmilləşdirilməsi müəssisələrin maliyyə idarəetməsində strateji əhəmiyyət kəsb edir. Hesabatın dəqiq və şəffaf aparılması müəssisəyə gəlirlərin və xərclərin real vəziyyətini müəyyən etməyə, maliyyə dayanıqlığını qiymətləndirməyə və riskləri vaxtında aşkarlamağa imkan yaradır. Sistemin beynəlxalq standartlara uyğunlaşdırılması maliyyə hesabatlarının etibarlılığını artırır və investorların, kredit təşkilatlarının etimadını təmin edir. Rəqəmsal texnologiyaların tətbiqi hesabatın hazırlanmasını sürətləndirir, insan amilindən yaranan səhvləri minimuma endirir və məlumatların operativliyini təmin edir (Warren, Reeve, Duchac, 2021). Daxili nəzarət və audit mexanizmlərinin gücləndirilməsi hesabatın etibarlılığını daha da artırır, xərclərin optimallaşdırılmasına və maliyyə risklərinin effektiv idarə olunmasına şərait yaradır. Hesabatın vizual və analitik formatda təqdim olunması rəhbərliyə maliyyə vəziyyətini daha aydın qiymətləndirməyə və strateji qərarları əsaslandırmağa kömək edir. Təkmilləşdirilmiş mənfəət və zərərlər hesabatı yalnız maliyyə nəticələrini göstərmir, eyni zamanda müəssisənin uzunmüddətli inkişaf strategiyasının formalaşmasına əsas yaradır. Bu hesabat sistemi müəssisənin resurslardan səmərəli istifadə etməsinə, rəqabət üstünlüyü əldə etməsinə və bazarda mövqeyini gücləndirməsinə xidmət edir. Beləliklə, mənfəət və zərərlər hesabatının təkmilləşdirilməsi üsullarının tətbiqi müasir müəssisələr üçün zəruri və strateji əhəmiyyət daşıyır (Melnikova, 2022).

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 98-101
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 98-101
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

## Ədəbiyyat

1. Azərbaycan Respublikası. (2020). *Mühasibat uçotu haqqında Qanun*.
2. Drury, C. (2020). *Management and cost accounting*. Cengage.
3. Garrison, R., Noreen, E., & Brewer, P. (2022). *Managerial accounting*. McGraw-Hill.
4. Horngren, C., Sundem, G., & Elliott, J. (2022). *Introduction to financial accounting*. Pearson.
5. IFRS Foundation. (2023). *International Financial Reporting Standards*. London.
6. Kaplan, R., & Norton, D. (2021). *The balanced scorecard: Translating strategy into action*. Harvard Business School Press.
7. Melnikova, M. (2022). *Mühasibat uçotu və maliyyə hesabatları*. Elm və Təhsil.
8. Warren, C., Reeve, J., & Duchac, J. (2021). *Financial accounting*. Cengage Learning.

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 102-105
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 102-105
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Müjgan Abdullayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0006-3042-2919
mujgan.abdullayeva2003@gmail.com

# Onlayn tədris prosesinin təşkili: Üstünlüklər və çətinliklər

***Açar sözlər:*** *onlayn təhsil, tədrisin təşkili, təhsildə çətinliklər, rəqəmsallaşma*
***Keywords:*** *online education, organization of teaching, challenges in education, digitalization*

Müasir təhsil sistemi texnologiyanın sürətli inkişafı ilə yeni mərhələyə keçmişdir. Xüsusilə COVID-19 pandemiyasının yaratdığı məhdudiyyətlər nəticəsində onlayn təhsil modeli tətbiq olunmağa başlamışdır. COVID-19 pandemiyası dövründə Şimali Kipr universitetlərində 500 tələbə arasında aparılan tədqiqatda onlayn təhsilin üstünlükləri və çatışmazlıqları araşdırılmışdır. Onlayn təhsil zaman və məkan sərbəstliyi təmin edir. Bu yeni təhsil forması müxtəlif üstünlüklərə malik olmaqla yanaşı, müəyyən problemlər də ortaya çıxarmaqdadır. Təhsilalanların və müəllimlərin təcrübələrinə əsaslanaraq, bu sahədə mövcud üstünlüklər və çatışmazlıqların araşdırılması təhsil siyasətinin formalaşdırılması və tədris proseslərinin təkmilləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Bu səbəbdən tezisin məqsədi onlayn təhsilin üstünlüklərini və çatışmazlıqlarını sistemli şəkildə araşdırmaq və qarşıya çıxan problemlərin həllinə dair təkliflər hazırlamaqdır (Əliyeva, 2022).

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

Onlayn təhsil müasir təhsil sistemində vacib yer tutur və təhsil prosesinin innovativ forması kimi geniş yayılmaqdadır. Bu təhsil forması öyrənənlərə fərdi öyrənmə sürətini tənzimləmək, zamana qənaət etmək, coğrafi məhdudiyyətləri aradan qaldırmaq və maddi baxımdan sərfəli olmaq kimi mühüm üstünlüklər təmin edir. Bununla belə, onlayn təhsildə sosial qarşılıqlı əlaqənin məhdud olması, texniki problemlər, qiymətləndirmə sistemində yaşanan çətinliklər və praktik məşğələlərin çatışmazlığı kimi problemlər mövcuddur.

Distant təhsil yaşayış yerindən asılı olmayaraq, hər kəsə istənilən müəllimdən təhsil almaq imkanı verir. Bu forma tələbə və müəllim arasında intensiv əlaqə yaradır və dərs materiallarının keyfiyyətini artırır. Maddi baxımdan qənaətlidir; maddi imkanı az olan və ya uzaq bölgələrdə yaşayanlar üçün əlçatandır. Təhsil müəssisələri xərclərə qənaət edir, müəllimlər isə daha çox tələbəyə dərs keçir. Distant təhsil insan kapitalının inkişafına, sosial bərabərliyin artırılmasına və ölkənin təhsil imkanlarının genişlənməsinə töhfə verir. Texnoloji imkanlar tələbələrin rəqəmsal bacarıqlarını artırır, müxtəlif proqram və resurslara çıxışı asanlaşdırır. Onlayn dərslər introvertlər və vizual öyrənənlər üçün daha uyğundur. Bərabər iştirak, sosial inklüzivlik və interaktiv müzakirələr öyrənmə keyfiyyətini yüksəldir. Distant təhsil həm də yaradıcı, çevik və tələbəyönümlü bir tədris mühiti təqdim edir (Hüseynova, 2021)

Distant təhsil müasir texnologiyalar vasitəsilə həyata keçirilir və müxtəlif proqramlar (Skype, Zoom, Microsoft Teams və s.) ilə mühazirələr, müzakirələr, imtahanlar təşkil olunur. Lakin bu təhsil formasında praktiki məşğələlərin, laboratoriya işlərinin aparılması çox çətindir. Elektron kitablar və "e-dərslik" portalı kimi dövlət resursları bu problemi azaltmağa kömək edir. Onlayn sınaq imtahanları təşkil edən "otk.az" portalı isə tələbələrin imtahan vərdişlərinin inkişafına

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

xidmət edir. Onlayn təhsilin əsas çatışmazlıqlarından biri də sosial qarşılıqlı əlaqənin zəif olmasıdır. Ənənəvi təhsildə olduğu kimi professorlar və digər tələbələrlə üz-üzə münasibət qurmaq imkanı bu formada məhduddur. Tələbələr arasında ünsiyyət adətən e-poçt, onlayn söhbət otaqları və ya müzakirə forumları vasitəsilə həyata keçirilir. Lakin bu ünsiyyət formaları üz-üzə təmasın yerini tam şəkildə verə bilmir. Bundan əlavə, təlimatçının tələbəyə fərdi yanaşması və dərhal rəy bildirməsi də məhdudlaşır. Üz-üzə təhsildə mövcud olan canlı emosional mühit, jest və mimikalarla ötürülən qeyri-verbal siqnallar, dərs zamanı spontan müzakirələr və təbii sosial qarşılıqlı əlaqə onlayn təhsil mühitində ya tamamilə yoxdur, ya da olduqca zəifdir. Onlayn təhsilin digər problemi olaraq texniki resursların yetərsizliyi, internetin zəifliyi və bəzi dağlıq ərazilərdə internet əldə etmək ondan məhsuldar istifadə edə bilmək çox çətinlik yaradır. Eyni zamanda müəllimlərin İKT bacarıqlarının yetərsizliyi də çatışmazlıqlardan biridir (Şenol, Lesinger, Çağlar, 2021).

Distant təhsil formasında müəllimlərin rolu da dəyişmiş və daha da mürəkkəbləşmişdir. Onlar onlayn platformalar vasitəsilə şagirdlərin fəaliyyətinə daha diqqətlə nəzarət etməli, dərs materiallarını daha cəlbedici üsullarla təqdim etməli, eyni zamanda yaranan problemləri operativ şəkildə həll etməlidirlər. Bu isə müəllimlərin İKT bacarıqlarının artırılmasını və davamlı metodiki dəstəyin göstərilməsini zəruri edir. Distant təhsilin ölkəmizdə səmərəli tətbiqi üçün inkişaf etmiş ölkələrin bu sahədəki təcrübəsindən faydalanmaq məqsədəuyğundur. “Ali təhsil haqqında” qanunvericilikdə distant təhsillə bağlı xüsusi müddəaların əks olunması və bu istiqamətdə dövlət proqramlarının hazırlanması vacib amillərdəndir. Bununla yanaşı, distant təhsil üçün vahid texniki baza yaradılmalı, tədris proqramları bu formaya uyğunlaşdırılmalı və müəllimlərin sayı ilə yanaşı

distant təhsil üzrə təcrübələri də artırılmalıdır. Görüləcək bu kimi tədbirlər distant təhsilin keyfiyyətinin yüksəldilməsinə, eyni zamanda təhsilalanların bilik və bacarıq səviyyəsinin effektiv şəkildə artırılmasına xidmət edəcəkdir.

## Ədəbiyyat

1. Əliyeva, Z. (2022). *Onlayn təhsilin tədrisdə rolu*. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası. http://e-archive.sport.edu.az/bitstream/handle/123456789/363/Onlayn%20t%C9%99hsilin%20t%C9%99drisd%C9%99%20rolu.pdf?sequence=1&isAllowed=y
2. Hüseynova, A. (2021). Azərbaycanın distant təhsil: problemlər və perspektivlər. *Azərbaycan məktəbi*, 4(697), 98–104. https://www.as-journal.edu.az/uploads/files/2022/06/s-98-104-aybeniz-huseynova.pdf
3. Şenol, H., Lesinger, F. Y., & Çağlar, M. (2021). Onlayn təhsilin müsbət və mənfi tərəfləri: COVID-19 pandemiyası dövründə ali məktəb tələbələrinin qavrayışları. *Azərbaycan məktəbi*, 1(694), 46–59. https://as-journal.edu.az/uploads/files/2022/06/pros-and-cons-of-online-education-perceptions-of-higher-education-students-during-covid-19-pandemic.pdf

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 106-109
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 106-109
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Lamiyə Hüseynova**
SDU-nun nəzdində Sumqayıt Dövlət Texniki Kolleci
https://orcid.org/0009-0001-1428-3692
l.h.84.84@mail.ru

## Butilkauçukun üçbromasetat turşusu ilə modifikasiyası

***Açar sözlər:*** *butilkauçuk, modifkasiya, üçbromasetat turşusu, temperatur, inisiator*
***Keywords:*** *butylrubber, modification, tribromoacetic acid, temperature, initiator*

Xammal kimi modifikasiya üçün butilkauçukdan istifadə edilmişdir. Butilkauçuk izobutilen ilə izoprenin birgə polimerləşməsi nəticəsində alınır. Sintez olunan butilkauçukun molekul kütləsi 400-dən 100000-ə qədər ola bilir.

Butilkauçuk işığa, oksigenə və ozona qarşı davamlıdır. O, həm də suyun, turşunun və heyvan yağlarının təsirinə qarşı möhkəmdir. O, çox gec oksidləşir və ondan hazırlanmış rezin qocalmaya qarşı müqavimətli olur. Butilkauçukun əsas spesifik xassəsi aşağı qaz keçiriciliyidir.

Məlumdur ki, butilkauçuk mühüm xüsusiyyətlərə malikdir. Bununla yanaşı butilkauçukun bir qisim çatışmazlıqları vardır. Nümunə olaraq birgə polimerin vulkanlaşma və yapışqanlıq xüsusiyyətinin zəif olması, uyğun olaraq təbii və sintetik kauçuklarla çətin qarışmasını qeyd etmək olar. Bu da

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 106-109
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 106-109
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

butilkauçukun tətbiqini məhdudlaşdırır. Buna görə polimerin çatışmayan xüsusiyyətlərini aradan qaldırmaq məqsədəuyğun hesab olunur. Bu səbəbdən butilkauçuku tərkibində müxtəlif funksional qruplar saxlayan birləşmələrlə modifikasiya edirlər (Grigoruk, Abramova, & Orlov, 2008). Bu zaman polimerin fiziki-mexaniki xüsusiyyətləri yaxşılaşmış olur.

Təqdim olunan işdə əsas məqsəd radikal inisiatorların və həlledicilərin iştirakı ilə butilkauçukun üçbromasetat turşusu ilə modifikasiyası və alınan modifikatların xassələrinin təhlilindən ibarətdir. Reaksiya fərqli temperaturlarda aparılmış, həlledici kimi benzol götürülmüşdür. Bu zaman inisiator kimi diazoizoyağ turşusunun dinitrili götürülmüşdür. İstifadə olunan turşunun reaksiyaya girməyən hissəsi polyaroqrafik və potensiometrik titrləmə üsullarının köməyi ilə təyin olunmuşdur. Aparılan analizlər zamanı üçbromasetat turşusu ilə modifikasiya olunmuş butilkauçukun nümunələrində ikiqat rabitənin miqdarının azaldığı və uyğun olaraq birgə polimerin tərkibində olan bromun miqdarının 1,7% -ə bərabər olduğu müşahidə edilir.

**Butilkauçukun üçbromsirkə turşusu ilə reaksiyası aşağıdakı kimi verilmişdir:**



Butilkauçukun üçbromasetat turşusunun izopropil efiri ilə modifikasiyası da təhlil edilmişdir. Nəticədə tərkibində brom və efir qrupu olan yüksək fiziki-mexaniki xassələrə malik modifikasiya olunmuş butilkauçuk alınmışdır. Modifikasiya üçün tərkibində ikiqat rabitənin miqdarı 2.5±2 mol %, özlülüyü 45±4 olan butilkauçuk götürülmüşdür.

Eyni şəraitdə poliizobutilenlə üçbromasetat turşusunun izopropil efiri ilə qarşılıqlı təsiri göstərilmişdir ki, üçbromasetat turşusunun izopropil efiri poliizobutilenlə birləşmir. Alınan nəticəyə əsasən demək olar ki, üçbromasetat turşusu ancaq butilkauçukun izopren fraqmentinə birləşir. Reaksiya mühitində reaksiyaya girməyən üçbromasetat turşusunun izopropil efirinin miqdarı xromatoqrafik üsulla müəyyən olunmuşdur. Prosesin aktivləşmə enerjisi isə 24 kkal/mol olmuşdur. Prosesdə əldə olunan nəticələrdən görünür ki, butilkauçukun üçbromasetat turşusunun izopropil efiri ilə modifikasiyası xaraktercə butilkauçukun üçbromasetat turşusunun modifikasiyasından heç də fərqlənmir.

Alınan nəticələrə əsasən belə qənaətə gəlmək olar ki, modifikasiya prosesində -$CBr_3$ qrupu iştirak edir. Modifikatorun karboksil qrupu vasitəsilə kauçuka birləşməsi az inandırıcıdır. Üçbromlu sirkə turşusunun izopropil efiri ilə modifikasiya olunmuş butilkauçuk nümunələrinin İQ-spektrində xarakterik 1160 $sm^{-1}$ udulma zolağı efir qrupuna, 1145 $sm^{-1}$ udulma zolağı izopropil qrupuna və 1780 $sm^{-1}$ udulma zolağı isə tərkibində karbonil qrupu yanında iki brom atomu saxlayan birləşməyə uyğun gəlir. Modifikasiya olunmuş butilkauçukdan kompozisiyaların alınmasında istifadə olunur, bu da onların fiziki-mexaniki xassələrinin öyrənilməsinə imkanlar yaradır. Alınan nəticələrə əsasən müəyyən olunmuşdur ki, modifikasiya olunmuş butilkauçukun vulkanlaşması sürətlənir və bu da onun

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 106-109
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 106-109
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

yapışqanlıq qabiliyyətini artırır və eləcə də digər kauçuklarla qarışması xeyli yaxşılaşır.

## Ədəbiyyat

1. Grigoruk, Z. G., Abramova, N. V., & Orlov, Yu. N. (2008). Sposob polucheniya brombutilkauchuka s ispol'zovaniyem dvukh metodov vvoda modifikatora v rastvor butilkauchuka. In *Sintez, issledovaniye svoystv, modifikatsiya i pererabotka vysokomolekulyarnykh soyedineniy: Tezisy dokladov 12-y Mezhdunarodnoy konferentsii molodykh uchenykh, studentov i aspirantov* (Kazan’: KGTU).

Elmi Araşdırmalar XXVII Beynəlxalq Elmi Konfrans, 28 noyabr, 2025 / 110-117
Scientific Researches XXVII International Scientific Conference, 28 november, 2025 / 110-117
https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

**Turanə Çələbizadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0002-9097-6084
turana.celebi@gmail.com
**Leyla Abbasova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0003-8214-3899
abbasova0915@gmail.com
**Mehparə Qasımova**
Azərbaycan Texnologiya Universiteti
https://orcid.org/0009-0001-7371-5627
mehpar_qasimova@mail.ru

# Bitki qalıqlarından xammal mənbəyi kimi bioaktiv birləşmələrin ayrılması və istifadəsi

***Açar sözlər:*** *tullantı, bioaktiv maddələr, ekstraksiya, bioyanacaq, preobiotiklər, biotexnoloji*
***Keywords:*** *waste, bioactive substances, extraction, biofuel, prebiotics, biotechnology*

Dünya əhalisinin sürətlə artması kənd təssərüfatı məhsullarına olan təlabatın da artmasına səbəb olmuşdur. Bu gün məhsul istehsalı bütün fəsillərdə idarə olunan şəraitdə həyata keçirilə bilər. Buna görə də kənd təsərrüfatında istifadə olunan vəsaitlərin, eləcə də məhsul tullantılarının (sap, saman, istixana bitkiləri tullantıları, fındıq qabığı və s.) və kənd təsərrüfatı sənayesi tullantılarının (bəkməz, pivə zavodu tullantıları, qızılgül emalı tullantıları və s.) istehsal olunan miqdarı da artmışdır.

Son illərdə ətraf mühitin çirklənməsinin qarşısını almaq və tullantıların təkrar emalı və ya xammal mənbəyi kimi kənd təsərrüfatında istifadə edilməsi geniş vüsət almışdır. Belə ki,

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

kənd təsərrüfatı məhsullarının emalı zamanı qalan kütlənin eyni ərazilərdə təkrar istifadəsi onların ətraf mühitə mənfi təsirini azaldıb. Bu gün aparılan çoxsaylı araşdırmalar göstərmişdir ki, tullantı hesab edilən materialların əksəriyyəti birbaşa torpağa əlavə olunduqda üzvi maddə və bitki qidası mənbəyi ola bilir.

Nəticə etibarı ilə belə görünür ki, bitki istehsalı nəticəsində yaranan tullantı materialları həm üzvi maddələrin, həm də istehsal sahələri üçün qida mənbəyi kimi və uyğun qarışıqlarla yaxşı becərmə mühiti kimi istifadə oluna bilər. Odur ki, bu araşdırma həm dünya miqyasında, həm də ölkəmizdə bəzi bitki mənşəli tullantıların üzvi gübrə və qida mühiti kimi potensial istifadəsi və onların torpaq xüsusiyyətlərinə təsirini nəzərdən keçirir.

Bitki tullantılarının torpaqların fiziki, kimyəvi və bioloji xüsusiyyətlərinə müsbət təsiri çoxsaylı tədqiqatlarda müəyyən edilmişdir. Üzvi maddələr torpağın strukturunun formalaşması, mikroorqanizmlərin fəaliyyəti, su və qida maddələrinin saxlanması kimi xüsusiyyətlərinə təsir göstərir.

Ona görə də üzvi maddələrin tərkibi torpağın məhsuldarlığına təsir edən mühüm parametrdir. Ölkəmizdə üzvi maddələrin ən mühüm mənbəyi anbar peyinidir. Bununla belə, son tədqiqatlar göstərir ki, bir çox bitki tullantıları da yaxşı üzvi maddələr mənbəyi ola bilər. Bitki tullantılarının torpağa verdiyi üzvi maddələrin miqdarı tullantıların miqdarından, bitkinin növü və çeşidindən, becərmə üsulundan və iqlim şəraitindən asılı olaraq dəyişir. Cədvəl 1-dən göründüyü kimi, müxtəlif bitkilərin yığılması nəticəsində yaranan tullantıların miqdarı müxtəlifdir. Buna görə də, bitki qidalarının və onların torpağa verdiyi üzvi maddələrin miqdarı da dəyişir. Kənd təsərrüfatı istehsalı fəaliyyətləri və ya istehsal prosesləri nəticəsində yaranan bir çox material, məsələn, şəkər çuğundurunun başı və yarpaqları, taxıl sapı, fındıq qabığı, çay emalı tullantıları, tütün istehsalı

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

tullantıları, pivə sənayesi tullantıları, qızılgül emalı tullantıları, maya fabriki tullantıları və s. kənd təssərüfatında istifadə oluna bilər (Arthur et al., 2012; Bəxşəliyev et al., 2015; Gönüllü & Günay, 2003).

Bitkilər toplandıqdan sonra gövdə və yarpaqların təxminən 80%-i sahədə qalır. Bu baş və yarpaqları kompostla-yaraq torpağa əlavə etməklə torpaq həm üzvi maddələr, həm də bitki qida elementləri ilə təmin ediləcək. Həmçinin bitki qalıq-larının ayrı-ayrı hissələrində xeyli miqdarda makro və mik-roelementlər, üzvi maddələr toplanmışdır ki, bu maddələrin yenidən dövrana qayıtmaması digər canlıların həyatı üçün təhlükə ola bilər.

**Cədvəl 1. Bəzi mədəni bitkilərin yığımının sonunda yaranan tullantıların miqdarı.**

| Bitki növü | Bitkinin hissələri | Miqdarı( tonda) |
|---|---|---|
| Buğda | Samanı | 0,25 |
| Arpa | Samanı | 0.27 |
| Qarğıdalı | Sapı | 0.91 |
| Şəkər çuğunduru | Baş və Yarpaq | 1.60 |
| Kartof | Gövdəsi və yarpağı | 0,72 |
| Pomidor | Gövdəsi və yarpağı | 1.30 |
| Enginar | Gövdəsi və yarpağı | 2.43 |
| Balqabaq | Yarpağı və gövdəsi | 4.78 |

Məsələn, 1000 kq şəkər çuğundurunun baş və yarpaqlarında 3 kq N, 1 kq $P_2O_5$, 5 kq $K_2O$, 1,75 kq CaO, 1,15 kq MgO, 20 q Mn və 2 q Cu olduğunu nəzərə alsaq, 9 milyon ton şəkər çuğundurunun baş və yarpaqlarından 27 min ton N, 9 min ton $P_2O_5$, 45 min ton $K_2O$, 15 min 750 ton CaO, 10,350 ton MgO, 180 ton Mn və 18 ton Cu əmələ gəlir. Fabriklərdə şəkər

https://doi.org/10.36719/2663-4619/XXVII/BK/2025

çuğundurunun texnoloji və iqtisadi emal edilib, mümkün qədər çox kristal alındıqdan sonra yerdə qalan tullantı materialı melas adlanır. Tərkibində təxminən 50% şəkər olan tünd rəngli melas maddəsi sənaye üçün xammalıdır. Dünyada melas istehsalı 44,6 – 52,5 milyon ton təşkil edir, birinci yerdə Braziliya 11,5 milyon ton, Hindistan isə 6,5 milyon tonla ikinci yerdədir. Türkiyədə 2004-2005-ci il dövründə 600.000 ton melas istehsal edildiyi bildirilmişdir. Melasın qeyri-üzvi qida elementləri kalium, maqnezium və azotdan ibarətdir (Bhargava, Sharanagat, Mor, Kumar, 2020; Georganas, Giamouri, Pappas, Papadomichelakis, Galliou, Manios, Tsiplakou, Fegeros, Zervas, 2020; Gomez, Bernal, 2002).

Son tədqiqatlar bir çox qida tullantılarının, xüsusən də meyvə və tərəvəzlərin emalı nəticəsində yaranan əlavə məhsulların təbii qida əlavələri, qidalandırıcı maddələr və funksional qidalar istehsal etməklə qida zəncirinə təkrar emal edilə bilən bioaktiv birləşmələrin yaxşı mənbəyi ola biləcəyini ortaya qoydu. Qida tullantıları polifenollar karotenoidlər, betalainlər və xlorofil daxil olmaqla müxtəlif bioaktiv birləşmələrin zəngin mənbəyidir (Qasımova, 2024; Szabo, Cătoi, Vodnar, 2018).

